www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 noyabr 2016-cı il Çərşənbə № 254 (6575) Qiymәti 60 qәpik

**Xəbər**

**SOS: İsmayıllıda bir kənd torpaq altında qala bilər**

yazısı səh.15-də

**Gündəm**

## Baş prokuror Milli Məclisə təkliflər göndərdi-sərt cəzalar gəlir



Prezidentin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma cəhdi cinayət məsuliyyəti yaradacaq

yazısı səh.4-də

*Ofeliya Sənani:*

## "Elə bil ki, məni ölümə aparırlar..."

yazısı səh.12-də

## Azərbaycan müxalifəti ABŞ-dakı iğtişaşları pisləyir

yazısı səh.9-da

## Fermerlərin əsas problemi-korrupsiya...

yazısı səh.13-də

## Oliqarxların Beynəlxalq Banka borcu silinib-iddia

yazısı səh.7-də

## İşdən çıxarılan direktor nəsil ədavətinin qurbanı olduğunu iddia edir

yazısı səh.3-də

## Elektron poçtun nə olduğunu bilməyən məmurlar

yazısı səh.7-də

## Türkiyə Avropa Birliyi ilə "ipləri" qırır

yazısı səh.9-da

## Vanqanın gözlənilən qorxunc proqnozları

yazısı səh.15-də

## Sabah bütün müxalifət bir araya gələcək

yazısı səh.3-də

## Əməkdaşlarımız Lənkəran bazarından yazır

yazısı səh.10-da

## Ulyukayev noyabrda Bakıya niyə gəlmədi?

# PUTİNİN ŞİRKƏTİNƏ "XƏRAC" KƏSƏN NAZİR AZƏRBAYCANDA İZLƏNİB

Tatar əslli iqtisadi inkişaf naziri Aliksey Ulyukayevin öz kabinetində qandallanmasının sirri; noyabrın 1-də Bakıda keçirilən VII Azərbaycan-Rusiya regional forumunda iştirak edəcək hökumət üzvləri arasında Ulyukayevin olmamasının səbəbi nə olub?

yazısı səh.5-də



# Ermənistan ordusu rusun nəzarətinə keçir - Kremlin yeni Qarabağ planı

Moskvanın İrəvanla ortaq ordu ideyasının ilginc detalları üzə çıxır; rusiyalı tanınmış analitikə görə, Ermənistanın heç bir söz sahibliyi qalmayacaq, Bakı Qarabağa görə yalnız Moskva ilə anlaşacaq...

yazısı səh.8-də



## Sabiq nazir Əli Abbasovun qaynı istintaqa cəlb olunub

yazısı səh.4-də



*Murad Köhnəqala:*

## "Bu günə qədər Anarı yaxşı tanımadığıma görə peşmanam"

yazısı səh.6-da



## Natiq Əliyev Burkina-Fasoda nə axtarır?

yazısı səh.13-də

## Məleykə Abbaszadə Təhsil Nazirliyi ilə birgə İşçi Qrupu yaratdı

**Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi işçiləri və ekspertlərindən ibarət birgə İşçi Qrupu yaradılıb. APA-nın xəbərinə görə, Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, 2013-cü ildə yeni təhsil naziri təyin olunanda Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən birgə işçi qrupun yaradılması təklif edilib.**

Azərbaycanda yeni tətbiq olunan kurrikulumun nəticələrinin hər il müzakirə olunmalı olduğunu deyən M.Abbaszadə vurğulayıb ki, bu ilin aprel ayında Dövlət İmtahan Mərkəzi formalaşandan sonra Təhsil Nazirliyi bu təkliflərlə razılaşıb: "Bu işçi qrup şagirdlərin nəticələrini birgə təhlil edərək IX sinif buraxılış imtahanının yeni modelini razılaşdırıb. Bu yeni qaydalar "Abituriyent" jurnalının bu həftə ərzində işıq üzü görəcək xüsusi nömrəsində əks olunacaq".

**Onun sözlərinə görə, yeni qaydalar hazırda Ədliyyə Nazirliyi və Nazirlər Kabinetində hüquqi müstəvidə təsdiqlənmə prosesindən keçir:** "Bu proseslər bir qədər zaman alır. Amma imtahana hazırlaşan şagirdlər üçün imtahanın məzmunu vacibdir. Artıq imtahanın modeli və məzmunu təsdiqlənib. Bu məsələyə hüquqşünaslar müdaxilə edə bilməzlər. Çünki bu məsələ 2 təşkilat - Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi arasında razılaşdırılıb".

**M.Abbaszadə buraxılış imtahanlarında yeni fənlərin əlavə edilməsini məqsədəuyğun hesab etmədiyini deyib. Onun sözlərinə görə, şagird riyaziyyat fənnini az mənimsəyibsə, onu digər fənlərdən, məsələn, fizikadan testə cəlb etmək düzgün deyil:** «Əgər imtahanda 30% uşaq boş vərəq verirsə, fizikadan 60% boş vərəq verəcək. Çünki riyaziyyatın bünövrə yoxdursa, fizikanı mənimsəyə bilməyəcək. Bundan əlavə, Ana dili fənninə aid olan standartlar biri də mətni anlamaqdır. Biz görürük ki, bu gün uşaqlar standarta uyğun tapşırıqları yerinə yetirə bilmir.

Məsələni araşdıranda görürük ki, V-VI sinif şagirdləri sürətlə oxumağı bacarmır, mətnləri heca ilə oxuyurlar. Buna görə də mətni verilən vaxta uyğun oxuyub cavab verə bilmirlər".

## Azərbaycan əhalisinin sayı açıqlanıb

**Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 79 min nəfər və ya 0,8% artaraq 2016-cı il oktyabr ayının 1-i vəziyyətinə 9 milyon 784,6 min nəfərə çatıb. Dövlət Statistika Komitəsindən APA-ya verilən məlumata görə, əhalinin sıxlığı bir kvadrat kilometrə 113 nəfər olub.**

Əhalinin ümumi sayının 53,1 faizini şəhər, 46,9 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.

Cari ilin yanvar-sentyabr ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkədə 119,7 min, yaxud hər gün orta hesabla 437 doğulan körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 16,5 təşkil edib. Doğulan körpələrin 53,4 faizi oğlan, 46,6 faizi isə qız uşaqlardan ibarət olub. Körpələrin 2090-ı əkiz, 54-ü isə üçəm doğulub.

Ölkə üzrə cari ilin ilk 9 ayı ərzində 42,0 min ölüm halı qeydə alınıb, ölüm səviyyəsi hər 1000 nəfər əhaliyə 5,8 olub.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində qeydiyyat şöbələri tərəfindən 50,4 min nikah və 9,6 min boşanma halları qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 7, boşanmaların sayı isə 1,3 olub.

Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən cari ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana daimi yaşamaq üçün 2678 nəfər gələn və 1397 nəfər ölkədən gedən qeydə alınıb, miqrasiya saldosu müsbət 1281 nəfər təşkil edib.

## Hərbçilərimiz Ermənistan ordusuna məxsus PUA-nı məhv etdi

**Noyabrın 14-ü axşam saatlarında cəbhənin Tərtər rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq atəşlə məhv edilib.**

Virtualaz.org bildirir ki, bu barədə Azərbaycan Müdafiə Nazirliyinin saytı məlumat yayıb.

## 2017-ci ilin büdcə zərfi parlamentə təqdim olundu

**Azərbaycan Respublikasının 2017-ci il üzrə dövlət büdcə zərfi Milli Məclisə təqdim olunub. Virtualaz.org Milli Məclisin mətbuat xidmətinə istinadən bildirir ki, büdcə layihəsi parlamentə daxil olub və tezliklə parlament komitələrinin müzakirəsinə veriləcək.**

Qeyd edək ki, büdcə zərfinə "Azərbaycan Respublikasında 2017-cı il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2017-cı il üçün ehtiyac meyarının həddi haqqında", "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2017-cı il büdcəsi haqqında" qanunları, Milli Məclisin və Hesablama Palatasının 2017-cı il üçün xərclər smetaları daxildir.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# VİP sədri "Yeni Müsavat"a təbrikə gəldi

## Əli Əliyev: "Bu 27 illik yol Rauf bəyi və "Yeni Müsavat"ı yenə də ön sıralarda saxlayır"

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev noyabrın 15-də "Yeni Müsavat" qəzetini ziyarət edib. Qəzetmizin 27 yaşını təbrik edən partiya sədri "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu ilə görüşərək, redaksiyamızın iş şəraiti ilə tanış olub.**



Ziyarətinin sonunda Ə.Əliyev müsavat.com-a açıqlama verib. O, "Yeni Müsavat"ın redaksiyasında olmasının səbəbləri barədə danışıb: "İlk olaraq, bir neçə gün öncə qeyd etdiyiniz 27 yaşınızı təbrik etmək üçün gəlmişdim. Digər tərəfdən, mənəvi yük borcum da var idi. Rauf bəyi 50 illik yubileyi ilə bağlı üzbəüz təbrik edə bilməmişdim. Gəlişimin səbəblərindən biri də budur. Digər tərəfdən, Azərbaycanın ictimai-siyasi fikrində xüsusi rola malik olan "Yeni Müsavat" kollektivinin iş şəraiti ilə tanış olmaq istəyim var idi. "Yeni Müsavat" qəzetinin ilk rüşeymlərini hələ cavan ikən meydanlarda oxumuşdum. Rauf bəyin hazırladığı ideoloji yüklü məqalələr, qəzetlər əlbəəl gəzirdi. Azərbaycanda ictimai-siyasi fikrin formalaşmasında bir neçə şəxsin, o cümlədən Rauf bəyin xüsusi rolu olub. Bu 27 illik yol Rauf bəyi və "Yeni Müsavat"ı yenə də ön sıralarda saxlayır. Bu onun həm intellekti, həm bacarığı, həm təşkilatçılığı, həm də əzmkarlığı ilə bağlıdır. Rauf Arifoğlu siyasətçi kimi yaxşı siyasətçi, jurnalist kimi isə peşəkar jurnalistdir. Hər iki işinin öhdəsindən hər zaman gəlməyi bacarıb. Harada olmasından asılı olmayaraq, onun olduğu yer siyasi mərkəz funksiyasını daşıyıb. İndi siyasi fəaliyyətdən bir qədər kənarlaşsa da, yenə də siyasi fikrin formalaşmasında onun və qəzet kollektivinin böyük rolu danılmazdır. Seçilən dəsti-xətt cəmiyyətin formalaşmasında, fikirlərin cilalanmasında, onun ideoloji yükünün ağır olmasında xüsusi rola malikdir. Mütəmadi oxuduğum, peşəkarlığına etimad etdiyim həm "Yeni Müsavat" qəzeti, həm müsavat.com saytı, həm də rusdilli minval.az saytıdır. Partiya olaraq fəaliyyətimizdə bu qəzetin daim dəstəyini hiss edirik. Düşünürəm ki, partiya kimi buna böyük ehtiyacımız var. Gəlişimin səbəblərindən biri də, həm də bir minnətdarlıq ifadə etmək idi. Bu fürsəti də bizə verdiyi üçün "Yeni Müsavat"a təşəkkür edirəm".

**Partiya sədri "Yeni Müsavat"a gəlişi ilə bağlı aldığı təəssüratları bölüşdü:** "Təəssüratım çox xoşdur. Arxasında heç kimin olmadığı, heç bir siyasi təşkilata sığınmadığı şəxsin Azərbaycanda liberal bazarın olmadığı şəraitdə, ciddi iş adamlarının dəstəyi olmadan bu cür təsisata sahiblənməsi asan məsələ deyil. Bu, əzmkar xarakter tələb edir. Həm əmlak, həm kollektiv baxımından, həm də yaradıcılıq nöqteyi-nəzərindən bu cür kollektivi bir arada saxlamaq, xeyir-şərdə mehriban ailə kimi birlikdə iştirak etmək bu ailənin üzvlərinin, ilk növbədə onun rəhbərliyinin xidmətidir. Belə kollektivi və təsisatı qorumaq yaxşı bilirəm ki, Azərbaycan şəraitində necə çətindir. Burada əsas altını cızacağım məsələ bunları edərək, sifətini itirməmək, 30 illik ideoloji tezisindən imtina etməmək çox mühüm idi. Bu faktor qəzetin kollektivi tərəfindən qorunub saxlanılıb. Bu günləri nəyinsə adını çəkmək, hətta fikirlərini ifadə etmək adi insanlar, siyasi kəsim üçün çətin olduğu halda bu qəzetin bütün mövqelərində əsas kimi Azərbaycanın müstəqilliyini, xalqımızın milli çıxarılarını, Rəsulzadədən buraya gəlib milli tezislərini qoruyub saxlamaq, Azərbaycan xalqı və gələcək nəsillər qarşısında çox böyük xidmətdir. Zamanı gələndə əminəm ki, bunun qiyməti veriləcək".

## Çovdarov üçün yeni vəkil

**Sabunçu Rayon Məhkəməsində ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesə A. Çovdarov hakim nəzarətində gətirilib. İclasda A. Çovdarovun yeni vəkillə müqavilə bağladığı bildirilib. Onun yeni vəkili Şahin Rəfiyev orderi məhkəməyə təqdim edib. Hakim bildirib ki, A. Çovdarovun vəkillərindən imtina və yeni vəkilin prosesə müdafiəçi kimi qoşulması məsələsinə növbəti iclasda münasibət bildiriləcək.

Məhkəmə iclası jurnalistlərin iştirakı olmadan keçirilib. Proses noyabrın 17-də davam edəcək.

## Dollar 1,70 manatı keçdi

**Azərbaycan Mərkəzi Bankı (AMB) noyabrın 16-na olan USD/AZN məzənnəsini açıqlayıb.**

AMB-dən virtualaz.org-a verilən məlumata görə, dolların məzənnəsi sabah üçün 1,7039 manat səviyyəsində müəyyən olunub. Bu, məzənnənin 0,50% bahalaşması deməkdir.

Qeyd edək ki, noyabrın 15-də dolların məzənnəsi 1,6954 manat olub.



## İran prezidenti Ermənistana gedir

**İran prezidenti Həsən Ruhani erməni həmkarı Serj Sərkisyanın dəvəti ilə gələn həftə İrəvana gedəcək. Virtualaz.org bildirir ki, məlumatı İran informasiya agentliyi "Fars" yayıb. Məlumatda o da bildirilir ki, Həsən Ruhani Ermənistandan Qazaxıstana, daha sonra isə Qırğızıstana gedəcək.**

## Rusiyada Azərbaycan vətəndaşı qətlə yetirildi

**Rusiyada Azərbaycan vətəndaşı öldürülüb. APA-nın məlumatına görə, qətl hadisəsi noyabrın 14-də Novqorod vilayətinin Pestov rayonunun Ponomaryevo kəndində baş verib.**

Naməlum şəxs Pestov rayonunda yaşayan Azərbaycan vətəndaşına bıçaqla zərbələr endirib.

Ölümcül yaralanan azərbaycanlı özü maşına oturaraq şəhər mərkəzinə gəlib, təcili tibbi yardım çağırılmasını istəyib. Lakin o, çoxlu qan itirdiyindən ölüb.

Hazırda faktla bağlı araşdırma aparılır, qatilin tapılması istiqamətində əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

Ölən şəxsin adı açıqlanmır.

## Mursinin edam cəzası ləğv olundu

**Noyabrın 15-də Qahirədə kasasiya məhkəməsi Misirin sabiq prezidenti Məhəmməd Mursinin edam cəzasını ləğv edib. (AzərTAc).**

"RİA Novosti" informasiya agentliyi xəbər verir ki, məhkəmə Məhəmməd Mursi ilə bərabər, "Müsəlman qardaşları" hərəkatının bir sıra digər üzvləri barədə çıxarılmış ölüm hökmlərinin ləğvinə dair də qərar qəbul edib. "Youm7" xəbər portalının məlumatına görə, işlə bağlı yeni araşdırma təyin olunub.

Xatırladaq ki, sabiq prezident və onun silahdaşları ölüm cəzasına həbsxanadan qaçışların və asayiş keşikçilərinə hücumların təşkili ittihamı üzrə məhkum edilmişdilər.

## Bu gündən məktəblilərin payız tətili başlayır

**Noyabrın 16-dan məktəblilərin payız tətili başlayır. "Report"un məlumatına görə, 5 günlük tətil noyabrın 20-dək davam edəcək.**

Qeyd edək ki, ümumtəhsil məktəbində dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır. Dərs ili iki yarımilə bölünür. Birinci yarımil 15 sentyabr - 26 yanvarı, ikinci yarımil isə 1 fevral - 14 iyun tarixlərini əhatə edir.

Dərs ili ərzində 5 gün payız tətili (16-20 noyabr) və 5 gün qış tətili (27-31 yanvar) olur. İbtidai siniflər üçün isə 5 günlük əlavə yaz tətili (1-5 may) olur.

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

# Sabah bütün müxalifət bir araya gələcək

## Milli Dirçəliş Günü böyük tədbirlə qeyd olunacaq

**17 noyabr Milli Dirçəliş Günü münasibətilə bayram tədbiri keçiriləcək. Bu barədə AĞ Partiyanın sədri Tural Abbaslının verdiyi xəbərə görə, Milli Dirçəliş Gününü adına layiq tədbirlə qeyd etmək üçün yaradılan Təşkilat Komitəsi artıq hazırlıq işlərini demək olar ki, yekunlaşdırıb.**



Təşkilat Komitəsinə Tural Abbaslı, vəkil Qurban Məmmədov, meydan hərəkatının liderlərindən olmuş Nemət Pənahlı, VİP sədri Əli Əliyev, "Xural"ın baş redaktoru Əvəz Zeynallı, tanınmış hərəkatçı, "Çənlibel" təşkilatının yaradıcılarından biri olan Bəxtiyar Tuncay, Bünyamin Qəmbərli, Ənvər Börüsoy daxildir. Bayram tədbiri noyabrın 17-də Vətəndaş Həmrəyliyi Partiyasının qərargahında keçiriləcək. Bayram tədbirinə ölkənin əksər siyasi partiyalarının rəhbərliyi, xalq hərəkatının iştirakçıları, ictimai xadimlər, ziyalılar, media təmsilçiləri dəvətlidir.

Qeyd edək ki, 1988-ci il noyabrın 17-də Azərbaycanda meydan hərəkatı başlanıb. Azərbaycan üçün həmin gün xalq hərəkatının başlanğıcının qoyulduğu tarix olaraq mühüm əhəmiyyət kəsb edir. Məhz həmin gün o dövrkü Lenin meydanı-indiki Azadlıq meydanında ilk dəfə Azərbaycanın milli bayrağı qaldırılıb. Bakının baş meydanında ilk mitinq noyabrın 17-də keçirilib və 18 gün fasiləsiz davam edib. Təsadüfi deyil ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra prezident Əbülfəz Elçibəy 17 noyabrın Milli Dirçəliş Günü adlandırılması və rəsmi dövlət bayramları sırasına daxil edilməsi haqda fərman verib. 2006-cı ilə qədər 17 noyabr qeyri-iş günü olaraq dövlət səviyyəsində bayram edilirdi. 2006-cı ildən isə iş günü olan bayramlar sırasına daxil edilib.

❑ E.SEYİDAĞA

# İşdən çıxarılan direktor nəsil ədavətinin qurbanı olduğunu deyir

## Sahib Babayev: "İcra başçısı bu hadisəni nəzarətə götürüb araşdırsa, o zaman görəcək ki..."

**Noyabrın 11-də Gədəbəydə müəllimi döydüyü iddia olunan Çobankənd orta məktəbinin direktoru Sahib Babayev işdən çıxarılıb. Hadisə ilə bağlı tərtib olunan aktda məktəbin müəllimləri direktoru müdafiə etsələr də, bu, onun vəzifədə saxlanılmasına yetərli olmayıb.**




Bu barədə musavat.com-a məlumat verən S.Babayev rayon rəhbərliyinin ünvanına və hadisəni təşkil edənlərlə bağlı sərt ittihamlar səsləndirib: "Baş verən həmin hadisə ilə bağlı heç bir əsas olmadan məni müvəqqəti işdən çıxardılar. Ortada məktəb kollektivinin aktı var idi, onlar mənim otağıma edilən hücumun şahidi olublar. Amma bunların heç birinə məhəl qoyulmadı. Hadisəni təşkil edən Şahdağ orta məktəbinin direktoru Ramiz Əliyev mənimlə olan nəsil ədavətini sona qədər apardı. Mətbuata verdiyim ilk açıqlamada bu ədavətin nədən yarandığını deməmişdim, çünki etik deyildi. Amma məni tanıyanlar hər şeyi yaxşı bilir. Təsəvvür edin ki, otağıma Qəhrəman Əliyev hücum edir, həmin vaxt polis işçiləri məktəbin yanında olurlar və dərhal məktəbə daxil olub, hadisəni aktlaşdırırlar. Bu qədər təsadüf olarmı?

Qəhrəman Əliyev guya mənim tərəfimdən aldığı xəsarətlərlə yerləşdirildiyi Şəmkir Rayon Xəstəxanasından sağlamlığı ilə bağlı saxta rəy alır. Ekspertiza ona saxta rəy verib-sə, demək, başqa yerlərin bu məsələdə əli var. Dəfələrlə rayon icra başçısı Ramiz Yediyarovun qəbuluna düşmək istədim, lakin açıq şəkildə imkan verilmədi. Hadisə baş verəndən bu günə qədər mənim nalayiq ifadələr işlətdiyimlə bağlı bir söz belə yox idi. Amma vəzifədən çıxarılmağımla bağlı sənədə baxıram ki, orada guya ağır söyüşlər söydüyüm yazılıb. Açıq şəkildə şər-böhtan kampaniyasına start veriblər. Əslində mənə qarşı təzyiqlər 6 ay öncədən başlamışdı. İcra başçısı rəhbərlik etdiyim məktəbi tərifləmiş və onunla söhbətim olmuşdu. Bu da rayon rəhbərliyində bəzi şəxslərin xoşuna gəlmədi ki, niyə icra başçısı sizin məktəbi bu qədər tərifləyir və sən onunla niyə təklikdə söhbət etdin. Bu sözləri dəfələrlə eşitdim. İstəmirdim ki, bu məsələləri mətbuat səviyyəsində yayam, hadisənin yerli orqanlar tərəfindən ədalətli araşdırılacağına ümid edirdim. Amma görürəm ki, burada ədalətsizlik ən pik nöqtəyə çatır. İcra başçısı bu hadisəni nəzarətə götürüb araşdırsa, o zaman görəcək ki, nələr baş verib və kimlər bunu edib. Hadisə tam araşdırılmamış nəyə görə vəzifəmdən azad olunuram?

Bunların addımları o məna gəlir ki, mən döyülməli və özümü müdafiə də etməməli idim. Bir müəllimin direktora hücum çəkməsi, görün Gədəbəy rayon rəhbərliyi tərəfindən necə adi qarşılanır. Əslində o müəllimə qarşı cinayət işi açılmalı idi. Heç bir şahid yoxdur müəllimi vurmağımla bağlı... Amma hadisənin şahidi olub, həqiqətləri demək istəyən kifayət qədər şəxslər var ki, onları dinləyən yoxdur. Bütün bunlardan sonra o nəticəyə gəlirəm ki, bu hadisədə Ramiz Əliyev kiçik bir fiqurdur, əslində rayon rəhbərliyində olan şəxslərin burada əlləri var. Bütün mətbuatdan xahiş edirəm ki, bu məsələni diqqətdə saxlasınlar, nə zaman mənimlə əlaqə saxlamaq istəsələr, hər zaman hazıram. Bütün həqiqətləri deyəcəm. Vəzifəmdən çıxarılmağım deyil, bir qrup şəxsin əli ilə şəxsimə olan ədalətsizliklə barışan deyiləm, sona qədər öz haqlı mübarizəmi aparacam".

**Xatırladaq ki, hadisə noyabrın 11-də səhər saatlarında baş verib. Çobankənd orta məktəbinin fizika müəllimi Qəhrəman Əliyevlə direktor arasında yaranmış mübahisə əlbəyaxa döyüş həddinə çatıb. Bundan sonra Q.Əliyev Şəmkir xəstəxanasına aparılıb və hələ də orada müalicə alır.**

❑ Cavanşir ABBASLI

# Avropadan üz döndərənlər...



Xalid KAZIMLI

**Xatırlayarsanız, bir zamanlar Avropa çox cəlbedici idi. Türkiyə və Azərbaycan israrla Avropa ailəsinin üzvü olmaq, onun müxtəlif üst qurumlarında təmsil olunmaq istəyirdilər.**

Bundan ötrü həm Türkiyənin, həm də Azərbaycanın qarşısına avropalılar tərəfindən bir sürü şərtlər qoyulurdu - ölüm hökmünün ləğvindən tutmuş ta azad seçki keçirməyə, insan haqlarına riayətə qədər.

Şərtlər olduqca çox idi. Onların sırasında elələri vardı ki, yerinə yetirmək asan idi və hər iki ölkə bunları tezliklə gerçəkləşdirdi.

Məsələn, həm Azərbaycanda, həm də Türkiyədə ölüm hökmünün əvvəlcə icrası dayandırıldı, sonra bu cəza növü bütövlükdə qanunvericilik aktından çıxarıldı.

Azad seçki məsələsi Türkiyədə problem olmadığından bu şərt avtomatik olaraq yerinə yetirilmiş sayılırdı. Çünki Türkiyədə seçkilər onsuz da qanunlar çərçivəsində, azad və dürüst keçirilir, müxtəlif siyasi qüvvələr hakimiyyətə gəlir, koalisyon hökumətlər qurulurdu.

Azərbaycan rəhbərliyi isə var qüvvəsi ilə seçkilərin azad, qanuni keçirilməsi layihəsinə müqavimət göstərdi, nəticədə ATƏT və Avropa Şurasının ağzını boza verərək, öz iradəsini yeritdi.

Bu "nailiyyət"in əldə olunmasında rəsmi Bakının AŞ tövsiyələrini qulaq ardına vurmasıyla yanaşı, müvafiq qərarları qəbul edənləri, tövsiyə verənləri ələ almağa qədər müxtəlif vasitələr vardı.

Axırda avropalı parlamentarlar coğrafi baxımdan şərq, mentalca Asiya ölkəsi olan Azərbaycanı avropalaşdırmaq fikrindən vaz keçməyə məcbur oldular.

Türkiyənin Avropa ailəsinə - Avropa Birliyinə daxil olması planının qarşısındakı şərtlər isə daha çox və daha ağır idi.

İstər Ərdoğanın rəhbərlik etdiyi AKP-dən əvvəlki, istərsə də onun dövründəki hökumətlər bu şərtlərin tam əksəriyyətini yerinə yetirmişdilər. Amma Avropanın bəzi aparıcı ölkələrinin (Almaniya, Fransa, İngiltərə, Belçika) ağzı düzəlmirdi ki, düzəlmirdi.

Bir ara türkiyəli siyasilər az qala "nə olar, bizi Avropa Birliyinə qəbul edin" deyə yalvarır, bunu Türkiyənin nicatı hesab edirdilər. Avropa və Türkiyə ictimaiyyətində elə bir rəy yaranmışdı ki, Türkiyə AB üzvü olmasa dağılacaq.

Avropanın aparıcı dövlətlərinin direşməsindən isə elə çıxırdı ki, onlar Türkiyənin rifahını, inkişafını istəmirlər. Əksinə olsaydı, Türkiyə AB üzvlüyünə qəbul olunsaydı, Avropanın şərtlərini daha sürətlə və müqavimətsiz yerinə yetirərdi.

Fəqət Avropanın müqaviməti çox sərt oldu, hətta arada Türkiyənin dövlət qürurunu zədələyəcək addımlar atıldı.

Bir yerdən sonra Türkiyə üzünü Avropadan döndərdi, ərəb ölkələrinin "miralay"ı olmağa çalışdı. O da alınmadı. Rusiyaya yönəldi. Olmadı. Müstəqil türk respublikalarına reveranslar da effekt vermədi, Özbəkistan və Qırğızıstan kimi dövlətlər bu ideyaya isti baxmadılar. Sonra yenə Avropaya üz tutuldu. Təpki yenə sərt oldu.

Budur, artıq Türkiyə rəhbərliyi Avropadan tamamilə üz çevirəcəyini bəyan edir. Prezident Ərdoğanın Avropaya, Qərbə yönəlik ağır sözlərini avropalı liderlərin həzm etməsi mümkün deyil.

Azərbaycan da Avropanın seçkilərlə, iqtisadi şəffaflıqla, siyasi dustaqlarla bağlı səngimək bilməyən tövsiyə və tələblərindən təngə gəlmiş durumdadır.

Hər iki ölkənin rəhbərliyi əmindir ki, hakimiyyətin uzunömürlülüyünü qorumaq üçün ən yaxşısı Avropadan uzaq durmaqdır. Şərqdə, Asiyada, Rusiyanın hegemon olduğu coğrafiyada onlardan demokratik idarəçilik, insan haqlarına riayət, korrupsiyayla mübarizə tələb edən yoxdur. Bacardığın qədər hakimiyyətdə qala bilərsən.

İndi Türkiyədə edam cəzasının bərpasını tələb edənlərə prezident Ərdoğan da qoşulub və bəyan edir ki, həmin qanunvericilik sənədi onun masasının üstünə gələrsə, təsdiqləyəcək.

Artıq bizdə də ölüm hökmünün bərpasının zəruriliyi barədə ilk çağırışlar mediaya çıxıb. Bir azdan bu cür çağırışlar daha da şiddətlənəcək.

Lap axırda Avropanın bir zamanlar israrlı tövsiyələrlə qəbul etdirdiyi şərtlərin hamısı arxivə veriləcək və biz asiyalı, şərqli taleyimizlə barışaraq məchulluğa doğru irəliləyəcəyik.

Mövcud durum nikbin olmağa əsas vermir.

**Azərbaycanda internet informasiya ehtiyatında saxta istifadəçi ad və ya hesablardan istifadə edərək böhtan və təhqirlərə yol verməyin cinayət məsuliyyəti sayılması təklif edilir.**

# Baş prokuror Milli Məclisə təkliflər göndərdi-sərt cəzalar gəlir

## Prezidentin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma cəhdi cinayət məsuliyyəti yaradacaq



Baş prokuror Zakir Qaralov bununla bağlı Cinayət Məcəlləsinə 148-1 (İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə) maddəsinin əlavə edilməsi ilə bağlı Milli Məclisə təkliflər layihəsi təqdim edib. (APA).

Yeni maddəyə əsasən, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə 1000 manatdan 1500 manata qədər cərimə və ya 360 saatdan 480 saata qədər ictimai işlər, yaxud 2 ilədək müddətə islah işləri və ya 1 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Yeni maddənin "Qeyd" hissəsində isə göstərilir ki, bu maddədə "saxta istifadəçi adlar, profil və ya hesablar" dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yeni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür.

Müvafiq olaraq Cinayət Prosessual Məcəlləsinə də uyğunlaşdırma düzəlişlər təklif edilir.

Baş prokuror əsaslandırmasında qeyd edir ki, təklif olunan əlavə və dəyişikliklər layihəsi internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmənin qarşısının alınması və bu cür hüquq pozuntuları ilə daha səmərəli mübarizə aparılmasını təmin edilməsi məqsədini daşıyır.

**"Belə ki, təcrübədə xüsusən də internet texnologiyalarının inkişaf etdiyi bir dövrdə bir sıra şəxslər tərəfindən saxta adlar, profil və ya hesablar yaradılaraq insanların təhqir edilməsi hallarına rast gəlinməkdədir. Göründüyü kimi, bu sahənin tənzimlənməməsi və qanunvericilikdə olan müəyyən boşluqlar cinayət əməllərinin və digər bu kimi qanun pozuntularının törədilməsinə şərait yaradır. Odur ki, təklifin qəbulu hüquq pozuntularının qarşısının daha səmərəli şəkildə alınması, onlara qarşı mübarizənin gücləndirilməsi, qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması, habelə qanunvericilikdə olan müəyyən boşluqların aradan qaldırılmasını təmin etməkdir"**, - deyə Z. Qaralov qeyd edib.

Qanuna digər bir dəyişiklik də təklif edilir. Dəyişikliyə əsasən, Azərbaycanda internet informasiya məkanında dövlət başçısının - Prezidentin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma cəhdi cinayət məsuliyyəti yaranacaq. APA-nın məlumatına görə, baş prokuror Zakir Qaralov bununla bağlı Cinayət Məcəlləsinin 323.1-ci (Azərbaycan dövlətinin başçısının-Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində ləkələmə və ya alçaltma) maddəsinə əlavələrin edilməsi ilə bağlı Milli Məclisə təklif göndərib. Layihəyə əsasən, bu maddədə "və ya kütləvi informasiya vasitəsində" sözləri "kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında" sözləri ilə əvəz edilir. Buna görə qüvvədə olan sanksiya 500 manatdan 1000 manatadək miqdarda cərimə və ya 2 ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmədir. Qanuna 323.1-1 maddəsinin əlavə olunması da təklif edilir. Maddədə deyilir: "323.1-ci maddədə nəzərdə tutulmuş əməllər internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə törədildikdə, 1000 manatdan 1500 manata qədər cərimə və ya 3 ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Çingiz Qənizadə deyib ki, artıq qanun layihəsi Milli Məclisə daxil olub:** "Bundan sonra sosial şəbəkələrdə saxta profillər, adlar və ya hesablardan istifadə edərək böhtan atma və təhqirlərdən istifadəyə görə cinayət məsuliyyəti yaranacaq. Bu, Azərbaycanda bir yenilikdir. Artıq bundan sonra bu məsələlərə ciddi hüquqi qiymət veriləcək. Artıq sosial şəbəkələrdə milli, dini ədavəti qızışdıranlara, müharibə çağırışları edənlərə də cinayət işi açılacaq. Cinayət Məcəlləsinə ediləcək dəyişikliklərdə cərimədən tutmuş həbsə, azadlıqdan məhrum etməyə qədər nəzərdə tutulub" deyə, Çingiz Qənizadə bildirib.

**"Turan" agentliyinin direktoru Mehman Əliyev "Yeni Müsavat"a bildirdi ki, əslində bu sahədə problem var:** "Sosial şəbəkədən istifadə etməklə təhqir edirlər, böhtan atırlar və s. Yəni bununla bağlı problem var. Amma hakimiyyətin səmimiliyinə də inanmıram. Çünki bu dəyişikliklərdən tənqidi səslərə qarşı da istifadə edə bilərlər. Təcrübə bunu göstərir ki, tənqidlərə qarşı da bu maddələrdən istifadə olunur. İndi bilinmir ki, həqiqətənmi o cür hallara, yəni təhqir, böhtan və s. qarşı mübarizə aparmaq istəyirlər, yoxsa qanundan siyasi opponentlərinə qarşı istifadə olunacaq. Əslində 2003-cü ildə Mətbuat Şurasını yaradanda əsas məqsəd o idi ki, Azərbaycan mediasını peşə əxlaqı kodeksinə, yəni qaydalara uyğunlaşdıraq və mediada, internetdə və s. cür halların qarşısını alaq . O vaxt biz bu işi aparırdıq və yaxşı nəticələr də verirdi. Lakin hakimiyyət bu istiqamətdə hər şey etdi ki, bu, baş verməsin. Azad media səhnədən yığışdırıldı, media tam şəkildə hökumətin nəzarətinə götürüldü, bu istiqamətdə ciddi heç bir iş aparılmadı. Ona görə də mən hakimiyyətə inanmıram".

**M.Əliyev digər məqama da toxundu:** "Biz korrupsiyadan, oğurluqlardan, qanun pozuntularından yazanda bəs niyə kimisə həbs etmirlər, tədbir görmürlər, niyə o zaman qanun işləmir? Kütləvi şəkildə insanların haqlarının pozulması barədə siqnallar gələndə niyə tədbirlər görmürlər? Yaxud niyə bizim sorğularımıza cavab vermirlər, saymırlar? Niyə bu kimi sorğulara qanunamüvafiq şəkildə reaksiya verilmir, heç bir tədbir görülmür? Ölkənin özünün gəlib belə bir böhran vəziyyətə düşməsi milyonlarla insanın sosial durumunu pisləşdirib, haqlarını, iqtisadi hüquqlarını tapdayıb. Axı bunu illərdir media yazırdı, deyirdi. Yəni ölkədə bununla bağlı problemlər çoxdur. Amma axı vaxtilə bu problemi ölkədə həll etməklə bağlı təklif verdik, niyə həll olunmadı? Özləri gətirib vəziyyəti bu həddə çıxartdılar. Mətbuat Şurasının komissiyasına kimisə dəvət etməklə, yaxud kimisə "qara siyahı"ya salmaqla məsələ həll olunmayacaq. Deyək ki, Azərbaycanda kimsə təhqir etməyəcək, amma xaricdən təhqir edənlər tapılacaq, bəs o necə olacaq?"

**M.Əliyev hesab edir ki, problemin effektli həlli üçün izahat işlərinin aparılmasına ehtiyac var:** "Hamı maraqlı olmalıdır ki, bu cür hallara yol verilməsin. Elə etmək lazımdır ki, insanlar qaydalar çərçivəsindən kənara çıxarkən qorxu haqqında düşünməsin. İnsan başa düşməlidir ki, qorxudan yox, mənəvi nöqteyi-nəzərdən hansısa hərəkətə yol verməməlidir. İnsanın mənəviyyatını gücləndirmək, onunla işləmək lazımdır. Yoxsa vurub-tutmaq vəziyyətdən çıxış yolu deyil".

**Deputat, Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Fazil Mustafa isə fərqli fikirdədir:** "Bu dəyişikliklərə müsbət yanaşıram. Çünki hər kəs hansı məkanda olmasına baxmayaraq, başqalarının hüquqlarına qarşı qanundankənar fəaliyyət göstərməməlidir. Sadəcə, başqa məqsədlərlə bu maddənin yorumu ehtimalı da var və bunun üçün qanunda dəyişikliklərin izahı dəqiq verilməlidir, heç vaxt tənqid sferasına aid edilməməlidir".

❑ **E.PAŞASOY**



# Əli Abbasovun qaynı da istintaqa cəlb olunub

## Sabiq nazirin yaxın adamı 250 milyon manatın mənimsənilməsi epizodu üzrə ifadə verir

**Bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) yüksək vəzifəli şəxslərinin cinayət işi üzrə məhkəməyə hazırlıq iclası keçiriləcək. Ötən iclas təqsirləndirilən şəxslərin cinayət işinin materialları ilə tanış ola bilməməsinə görə təxirə salınmışdı.**

Yada salaq ki, məhkəmə qarşısına nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalov, "Aztelekom" MMC-nin sabiq baş direktoru Məhəmməd Məmmədov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin sabiq rəhbəri Beytulla Hüseynov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş mühasibi Anar Mustafayev, "AzİnTelekom" MMC-nin sabiq baş direktoru Cəlil Cəfərov, "Azərpoçt" MMC-nin sabiq baş direktoru Qəmbər Bəybalayev, "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC-nin baş mühasibi Səhrab Hümbətov, Emin Məmmədov və digər şəxslər çıxarılacaqlar. Onlar külli miqdarda büdcə vəsaitinin mənimsənilməsi ittihamı ilə üz-üzə qalıblar.

Maraqlıdır ki, ötən il noyabrın 13-də prezident İlham Əliyevin sərəncamı ilə işdən qovulan rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov uzun müddət istintaqdan kənar qala bilib. Onun barəsində cinayət işi bu ilin oktyabrında başlanıb. Sabiq nazirlə bərabər nazirliklə əməkdaşlıq edən bir neçə şirkətin nümayəndələri barəsində ayrıca istintaq olunur.

Ə.Abbasov və digərləri Cinayət Məcəlləsinin 179.3.1-ci (mənimsəmə və ya israf etmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə), 29, 179.3.1-ci (mənimsəmə və ya israf etməyə cəhd, mütəşəkkil dəstə tərəfindən törətməyə cəhd), 29, 179.3.2-ci (mənimsəmə və ya israf etməyə cəhd, külli miqdarda törətməyə cəhd), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilirlər.

İstintaqa yaxın mənbələrdən aldığımız məlumata görə, müstəntiqlərin sorğu-sualları ilə üz-üzə qalanlar sırasında Əli Abbasovla yanaşı, onun qaynı Elçin İbrahimov da var. E.İbrahimov RYTN xətti ilə aparılan 250 milyon manatlıq tikinti işlərini gerçəkləşdirib. E.İbrahimovun sədri olduğu "Qafqaz-S" inşaat məhdud məsuliyyətli cəmiyyətinin tikintiləri gerçəkləşdirərkən külli miqdarda vəsaitlərin mənimsənilməsinə əsaslı şübhələr olduğu üçün sorğu-sual olunub. Əli Abbasovun qohumlarının, oğlunun və digər yaxınlarının da tikinti şirkətləri də var. Həmin şirkətlərə RYTN-yi xətti ilə tikinti aparmaq üçün külli miqdarda büdcə pulları köçürülüb. Belə şübhələr var ki, həmin vəsaitlərin də böyük hissəsi mənimsənilib.

**Mövzuya qayıdacağıq.**

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

# Ulyukayev noyabrda Bakıya niyə gəlmədi?

**Noyabrın 14-də Rusiyanın iqtisadi inkişaf naziri Aliksey Ulyukayev 2 milyon dollar nağd rüşvət (bəzi mənbələr pulun bank hesabına köçürüldüyünü, nağd olmadığını iddia edir) alarkən həbs olunub. Nazir "Başneft" şirkətinin səhmlərinin 50%-nin alınmasında yardımçı olması üçün "Rosneft"dən 2 milyon dollar rüşvət aldığı üçün saxlanılıb. İddia olunur ki, rüşvəti nazirin kabinetinə gətirənlər Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları olub.**



# Putinin şirkətinə "xərac" kəsən nazir Azərbaycanda izlənib

Tatar əslli iqtisadi inkişaf naziri Aliksey Ulyukayevin öz kabinetində qandallanmasının sirri; noyabrın 1-də Bakıda keçirilən VII Azərbaycan-Rusiya regional forumunda iştirak edəcək hökumət üzvləri arasında Ulyukayevin olmamasına səbəb nə idi?

Life.ru saytının xəbərinə görə, otağında Federal Təhlükəsizlik Xidmətinin əməkdaşlarını görən nazir çaşqınlıqla yüksək rütbəli məmurlara dəfələrlə telefonla zəng edib və "Burada nə baş verir?" deyə soruşub. İlk saniyələrdə ona elə gəlib ki, bu, sadəcə olaraq, kiminsə təşkil etdiyi bir oyundur. Amma ona baş verənlərlə bağlı cavab verən olmayıb.

Məlum olub ki, Federal Təhlükəsizlik Xidməti naziri bir ilə yaxındır izləyirmiş və onun "Rosneft" şirkətindən rüşvət tələb etdiyi barədə məlumat Ulyukayevin telefon danışıqlarının dinlənilməsi, habelə yaxın ətrafının söhbəti sayəsində əldə edilib. Ulyukayev Rusiya tarixinə rüşvətə görə vəzifə başında həbs olunan ilk nazir kimi düşüb.

**12-ci mərtəbədəki sorğu**

Rusiya KİV-ləri xəbəri alan kimi, Rusiya İstintaq Komitəsinin binasına toplaşıblar. Gecəyarı İstintaq Komitəsi saxlanma barədə ilkin məlumat yayıb. Ulyukayevin sorğu-sualı komitənin 12-ci mərtəbəsində səhər saatlarınadək davam edib. Saat 9 radələrində nazirin xidməti maşını İstintaq Komitəsinin həyətindən çıxıb, amma jurnalistlər Ulyukayevin içəridə olub-olmadığı öyrənə bilməyiblər. Bir neçə saat sonra məlum olub ki, Ulyukayev buraxılmayıb. Komitədən bildirildiyinə görə, əməliyyat çərçivəsində baş vermiş bu hadisə xüsusi xidmət orqanları tərəfindən əvvəlcədən planlaşdırıldığından, "Rosneft"ə qarşı heç bir iddia irəli sürülməyəcək.

**Putin bilirmiş...**

Kremldən ilk reaksiya Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovdan gəlib. Peskov deyib ki, Ulyukayevə ittihamlar ciddidir və son qərarı məhkəmə verməlidir. Bir neçə saat sonra Peskov dəqiqləşdirib ki, nazirin həbsinə hazırlıq barədə Putin əvvəldən məlumatlı olub. "Prezidentə hər şey məruzə olunub, o, kursda idi. Ona əməliyyat tədbirlərinin başlanılması barədə məlumat verilib" - Peskov deyib. Federal Təhlükəsizlik Xidmətindən verilən açıqlamada təsdiq edilib ki, nazir son bir il ərzində nəzarətdə imiş və keçiriləcək əməliyyat barədə çox az adamın məlumatı varmış.

Kremldə iş vaxtı başlayan kimi isə baş nazir Dmitri Medvedyev nazirin həbsi ilə bağlı məsələni dövlət başçısı ilə müzakirə edib. Medvedyev həbslə bağlı məsələnin ciddi araşdırılacağını deyib. KİV-lər iddia edir ki, Ulyukayevin işi üzrə daha bir neçə yüksək vəzifəli şəxs həbs oluna bilər.






**İstefa verəcəkmiş...**

Moskva Dövlət Universitetinin məzunu olan 60 yaşlı məmur 2013-cü ildə nazir vəzifəsinə təyin edilib. Ulyukayev Yeltsin hakimiyyəti dövründə Yeqor Qaydarın islahatçılar hökumətində müşavir vəzifəsini tutub. 2000-ci illərin əvvəllərində isə sabiq maliyyə naziri Aleksey Kudrinin müavini olub. Ulyukayev Mərkəzi Bankın İdarə Heyətinin sədr müavinliyindən nazir postuna gətirilib. Nazir büdcə kəsirlərini önləmək üçün onun karyerasını bitirən "Rosnerft" də daxil olmaqla, "VTB Bank"ın, "Başneftin", "Sockomflot"un, almaz çıxaran "ALORSA"nın özəlləşdirilməsinin qatı tərəfdarı kimi tanınırdı. Maraqlıdır ki, indi rüşvətə görə həbs edilən nazir Rusiya iqtisadiyyatının əsas bəlası kimi korrupsiyanın göstərirdi. O, Dumadakı çıxışlarında korrupsiyaya qarşı mübarizədə şəffaflığın artırılmasının, məmurların gəlirləri və xərcləri haqda müntəzəm hesabat verməli olduğunun vacibliyini qeyd edirdi. Daha bir diqqətçəkən məqam son aylar onun Dumada daima sərt tənqid olunmasıdır.

Gazeta.ru saytının xəbərində deyilir ki, Ulyukayev sanksiyalar və neftin qiymətinin düşməsi səbəbindən ciddi kəsirlərlə qəbul olunması gözlənilən 2017-ci il dövlət büdcəsinin Dumada qəbulundan sonra istefaya getməyə hazırlaşırmış. Sayt bunun səbəbi kimi Ulyukayevin maliyyə naziri ilə rublun məzənnəsinə və inflyasiya faizinə dair proqnozlar ətrafında fikir ayrılıqlarının olmasını göstərir.

**Tatar kökənli nazir**

İqtisadiyyat üzrə doktor elmi dərəcəsi almış nazir ata tərəfdən kökəncə tatardır. Onun atası Valentin Xusainoviç Ulyukayev də torpaqşünaslıq üzrə alimdir, kitabları ali məktəblərdə dərslik kimi istifadə olunur. Nazir birinci arvadından boşandıqdan sonra yenidən ailə həyatı qurub. İki oğlu, bir qızı var.

**"Rosneft" şirkətinin prezidentindən rüşvət istəmək nə deməkdir?**

"Rosneft" dövlət şirkətinin prezidenti İqor Seçin Vladimir Putinin ən yaxın dostlarından biridir. Rusiyanın "boz kardinalı" hesab edilən İqor Seçinin şirkətindən 2 milyon dollar rüşvət istənilməsi həm də Putinə kəsilən "xərac" anlamına gəlir.

**Bakıda da izlənibmi?**

Ulyukayev bir neçə dəfə Azərbaycanda olub. O, mütəmadi olaraq Azərbaycan-Rusiya regional forumunda əsas iştirakçılardan biri idi. Sonuncu dəfə bu ilin avqustunda Azərbaycanda keçirilən ənənəvi Azərbaycan-Rusiya regional forumunda iştirak edib. FTX məlumat yayıb ki, naziri son bir ildə izləyiblər. Belə anlaşılır ki, naziri elə Bakıda da izləyiblərmiş...

Maraqlıdır ki, noyabrın 1-də Bakıda keçirilən VII Azərbaycan-Rusiya regional forumunda iştirak edəcək hökumət üzvləri arasında A.Ulyukayev olmayıb. Halbuki bir neçə gün əvvəldən nazirin köməkçisi Yelena Laşkina A.Ulyukayevin tədbirdə iştirak edəcəyini demişdi. Amma Ulyukayev nədənsə, ilk dəfə olaraq təşkilatçısı olduğu foruma gəlmədi. Onu Rusiya Prezidenti Administrasiyasının xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Vladimir Çernov əvəz edirdi.

**"Lənətlənmiş" iqtisadi inkişaf naziri postu Azərbaycanda da iki naziri bitirib**

Azərbaycanda da iqtisadi inkişaf naziri postu "lənətlənmiş" hesab edilir. Məlumdur ki, 2005-ci il oktyabrın 19-da parlament seçkiləri ərəfəsində iqtisadi inkişaf naziri Fərhad Əliyev öz xidməti kabinetində həbs edildi. Fərhad Əliyev dövlət çevrilişinə cəhd ittihamı ilə həbs edilsə də, sonralar ona dövlət əmlakını mənimsəmə ittihamı irəli sürüldü. 2007-ci il oktyabrın 31-də Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə çıxarılmış hökmə əsasən, sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev 10 il müddətinə azadlıqdan məhrum edildi. Binədə yerləşən 2 saylı cəzaçəkmə müəssisəsində 8 il məhkumluq həyatı yaşayandan sonra əfv olundu.

2008-ci ildə F.Əliyevin xələfi Heydər Babayev də vəzifəsini itirdi. Prezident İlham Əliyev seçkidən sonra yeni hökumətdə yalnız iqtisadi inkişaf naziri Heydər Babayevi öz postuna təsdiq etmədi.

❑ "YM"

## Keçmiş MTN generallarının həbs müddəti uzadılıb



**"MTN işi" ilə bağlı başlanılan cinayət işi üzrə saxlanılan şəxslərin həbs müddəti növbəti dəfə uzadılıb. APA-nın məlumatına görə, Səbayel Rayon Məhkəməsi həmin cinayət işi üzrə saxlanılan və hazırda ibtidai istintaqı davam etdirilən, ləğv edilmiş MTN-in Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov və digərləri barəsində həbs-qətimkan tədbirinin müddətini 3 ay artırıb.**

Baş Prokurorluğun yaydığı məlumata görə, ləğv edilmiş MTN-in ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və vəzifə səlahiyyətlərini aşma faktları ilə bağlı cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Faktlar üzrə 21 şəxs Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, 19 şəxs barəsində həbs-qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam-qətimkan tədbiri seçilib, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs- qətimkan tədbiri seçilməklə axtarış elan edilib.

MTN əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərərçəkmiş şəxs qismində tanınıb. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilib.

## DTX Astarada əməliyyat keçirdi- 4 gömrük əməkdaşı tutuldu

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları Astara sərhəd nəzarət-buraxılış məntəqəsində əməliyyat keçirib.**

"Report"un xəbərinə görə, əməliyyat zamanı 5 nəfər saxlanılıb. Belə ki, Astara sərhəd nəzarət-buraxılış məntəqəsindən ölkəyə qızıl-zinət əşyalarını qaçaqmalçılıq yolu ilə keçirən Amur Məcidov DTX əməkdaşları tərəfindən saxlanılıb. Məlum olub ki, A.Məcidov Ümrə (kiçik Həcc) ziyarətindən geri dönərkən Səudiyyə Ərəbistanından qızıl-zinət əşyalarını ölkəyə qaçaqmalçılıq yolu ilə gətirib.

A.Məcidovun bu əməli Astara sərhəd nəzarət-buraxılış məntəqəsinin əməkdaşları ilə birgə həyata keçirdiyi məlum olub. Nəticədə A.Məcidov və Astara sərhəd nəzarət-buraxılış məntəqəsinin 4 əməkdaşı saxlanılıb.

A.Məcidov barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

4 nəfər gömrük əməkdaşı isə istintaqa cəlb olunub. İstintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

**2000-ci illərin əvvəllərindən ədəbi çevrədəki bu davaları, qalmaqalları, polemikaları yaza-yaza gəlirik. Azərbaycan Yazıçılar Birliyinə etiraz edib, onun sıralarından çıxanlar, birliyin sədri Anara qarşı kampaniya aparanlar... Və bir çox hallarda həmin etirazçılar bu mübarizəni dayandırırlar. Hətta Anarla barışıb, bu günə qədər onunla bağlı tutduğu mövqeyə görə peşmançılıq çəkənlər də olur.**

# "Bu günə qədər Anarı yaxşı tanımadığıma görə peşmanam"

## Murad Köhnəqala: "Aramız soyuyubsa, günah kimdədir? Məndə! Anar müəllim heç nə etməyib"

*Onlardan biri də şair-publisist Murad Köhnəqaladır. "Yeni Müsavat"a müsahibəsində M.Köhnəqala AYB sıralarına geri qayıtması və bunun arxasında dayanan səbəblərdən danışdı. Müsahibimiz öncə quruma üzv olmasına və AYB ilə yollarını birləşdirməsinə toxundu.*

- Yazıçılar Birliyinə üzv olduğum doğrudur. Bir dəfə mən Kəramət Böyükçöllə müsahibəmdə Anar haqqında sözlər demişdim. Anarla bağlı söhbətdə hardasa günahı özümüzdə görmüşdüm. Anardan açıqlama alanda da o demişdi ki, Murada bütün qapılarımız açıqdır. Bundan sonra Elçin Hüseynbəylinin vasitəçiliyi ilə Anar müəllimlə görüşdüm. Yazıçılar Birliyinin üzvlüyünə bərpa olunmaq üçün müraciət etdim və məni üzv qəbul elədilər. Bəli, dedikləriniz düzdür.

**- *Yenidən qayıtmaq üçün etdiyiniz müraciətin kökündə nə dayanır? Siz qalmaqallı şəkildə ordan çıxmışdız və etirazlar edirdiz...***

- (Müdaxilə edir) Yox, yox... Elə deyil. Biz o vaxt Azad Yazarlar Ocağını (AYO) təsis edəndə nizamnaməmizə belə bir bənd salmışdıq ki, AYO-nun üzvü olan heç bir ədəbi birliyin üzvü olmamalıdır. O zaman da o bəndi mən saldırmışdım. Çünki Yazıçılar Birliyinin üzvü olan uşaqların çoxu bizə müraciət edirdi ki, bizi də üzvlüyə qəbul edin. Biz də deyirdik ki, ikili oynamaq olmaz. Ya o üzdən olun, ya da bu üzdən. Mən bu məsələni aydın şəkildə qoymuşdum. Ərizəmi də qurumun o vaxtkı katibi, rəhmətlik Arif Əmrahoğluna vermişdim. Qalmaqalsız və sakit şəkildə. Ərizəmdə də qeyd etmişdim ki, biz belə bir ədəbi qurum təsis etmişik və ona görə də Yazıçılar Birliyindən çıxmalıyam.

**- *Murad bəy, o vaxtdan bu vaxta AYB-də dəyişən nə var ki, siz bu qədər fasilədən sonra yenidən ora qayıtdınız? Məqsəd təkcə təqaüd və ya hansısa sosial şərtləri təmin etməkdən gedir?***

- Bilirsiz məsələ nə yerdədir? AYO-nu Rasim Qaraca və Həmid Herisçi ilə birgə təsis etmişik. AYO-nun ideyası mənə məxsus olub və bunu Rasim Qaracaya danışmışam. Rasim əvvəlcə buna razı olmayıb. Belə bir təşkilat yaratmağın mənası olmadığını deyib. Sonra bu söhbətə 1 ay sonradan qayıtdıq. Bulvarda söhbət edirdik. Dedik ki, bu qurumu kimlə, necə yaradaq? Həmid o vaxt Bəhram Gurun heykəlinin yanında yerləşən bacısının evinin qabağında idi. Getdik ora. O da orda bizi gözləyirdi...Həmidi də orda razılaşdırdım. Dərhal sonra müəyyənləşdirdik ki, nələr etməliyik, strategiyamız nədir-filan.

**- *Bəy, üzr istəyirəm, mənim sualım başqa idi. Siz qurumun yaranma hekayəsini danışırsız, mən isə...***

- Yox, ona gətirirəm də. Bir yerdə AYO-nu yaratdıq, dost olduq. Sonra AYO-dan da çıxdım. Səbəblərini açıqlamıram. Amma sözsüz ki, narazılıqlarım oldu. Oradan çıxandan sonra bizim əlaqələrimiz itdi. Ömrü boyu Rasimə də, Həmidə də mən zəng edərdim. Onlar heç vaxt mənə zəng etməzdi. Onlar böyük və ağır adamlardır. Özlərini də ağır seyid kimi aparırdılar. Bir ara rayonda yaşadım. Bakıya gələndə bir neçə dəfə şəhərdə Rasimi görmüşdüm. Rasim məni görməzliyə vurub gedirdi. Mən onda anladım ki, bunlardan mənə dost olmaz. Çox peşman oldum ki, Anarla dostluğumu davam etsəydim, yüz dəfə bundan yaxşı olardı. Bizim ədəbi davalarımız estetik davalardır. Kimin nə yazıları var, kim nə yazır, özü bilər. Daha konkret desək, cərəyanlar, nəsillər davası olub. Bu davanı 60-cılar da 50-ci illər nəsli ilə aparıb. Bu, təbiidir. Amma insani baxımdan yanaşanda gördüm ki, Anar dostlarından heç birini atmayıb. Düzdür, Anarın ətrafında çox adam olub, özləri hoppanıb-düşüblər, qaçıblar, gedibər... Amma Anar bir dostuna belə etibarsızlıq etməyib. Gördüm ki, bunların hamısından ən etibarlı Anardır. Yazıçılar Birliyinə özüm qəsdən üzv olmaq istədim. İndi soruşursuz ki, təqaüd... Mən heç bilmirəm ki, mənə təqaüd veriləcək, ya verilməyəcək... Verilsə, alacam, verilməsə, heç kimdən inciməyəcəm. Mən təqaüdə görə AYB-yə üzv olmamışam ki.



**- *Təqaüd üçün müraciət etməmisiz?***

- Yox. İlk müsahibəmdə də demişəm ki, mənim Yazıçılar Birliyinə, onların da mənə ehtiyacı yoxdur. Mən, sadəcə, vicdani bir söz dedim Anar müəllim haqda. Əslində əvvəldən mənim Anarla aramda heç nə olmayıb. Mən Anardan xeyli kiçiyəm. Mən kiməm ki, gündə Anar müəllimlə bir məclisdə oturmurduq ki... Sadəcə, aramız yaxşı idi. Mən Anar müəlliməm, o da mənə hörmət edirdi. Sonra da aramız soyudu. Aramız soyuyubsa, günah kimdədir? Məndə! Anar müəllim heç nə etməyib. Mən vicdani olaraq bir müsahibədə bunu təsadüfən dedim. Yazıçılar Birliyinə qayıtmaq fikrim yox idi. Sonra Elçin Hüseynbəyli təşkilatçılıq etdi və belə bir görüş baş tutdu.

**- *Mən görüş barədə detalları soruşum. Təbii ki, mətbuata açıqlaya biləcəyiniz qədər detalları... Anar müəllim hər zaman müsahibələrində deyirdi ki, "tövbə qapımız açıqdı, kim gəlsə qəbul edəcəyik" və sair. Söhbət "tövbə janrında" keçdi?***

- Bizim yanımızda Elçin Hüseynbəyli də oturmuşdu. Anar müəllim dedi ki, mənim səndən inciklliyim yoxdur. Mən dedim ki, AYB-AYO polemikaları oldu və olmalı idi. Bu, 50-cilərlə 60-cılar nəsli arasında da olub. Dedi, düzdür. Dedim, bu polemikaların ədəbiyyata da faydası oldu. Bunu da təsdiqlədi. Amma ardınca dedi ki, bəzən sərhədi keçənlər də olmuşdu, sən də keçmişdin. Soruşdum ki, mən nə zaman keçmişdim? Dedi, bir dəfə atamdan yazmışdın. Amma mən xatırlamıram. Açığı, heç özüm də sevmirəm ki, kiminləsə polemikaya girəndə onun valideynlərini də müzakirə obyektinə çevirim. Həmişə də ətrafımda olan uşaqlara da deyirdim ki, kimlə problemin varsa, onun özündən danış. Anar müəllimə də dedim ki, xatırlamıram. Bu hadisədən uzun müddət öncə rəy sorğusu aparılaraq, "ən yaxşı şeir"i soruşmuşdular. Mən Rəsul Rzanın "Rənglər" şeirini demişdim. Uşaqlar elə bilmişdi ki, mən bunu ironiya ilə deyirəm. Amma elə deyildi, tam səmimi demişdim.

**- *Bəs Anar müəllim sizə nəsə vəd elədi?***

- Anar müəllimin mənə ilk sualı belə oldu ki, mən sizə nə kimi köməklik edə bilərəm? Məsələn, bu sözü mənə heç bir dostum deməyib. Orda özümü bir az pis hiss etdim ki, necə olub mən bu adamı bu qədər müddət düzgün tanımamışam.

**- *Yəni peşman olduz bu günə qədərki mövqeyinizə görə?***

- Bəli, peşmanam. O, ədəbi-estetik polemikalara görə yox, sadəcə, ona münasibətimə, onu tanımadığıma görə. O, məndən yaşlıdır, böyük bir nəslin, ailənin nümayəndəsidir. Mən onu öz dostlarımla müqayisə etdim. Gördüm ki, mənim heç bir dostum mənə deməyib ki, sənə hansısa köməyim dəyə bilərmi?

**- *Yəni söhbəti belə yekunlaşdırmaq olarmı ki, siz öz yolunuzu dəyişmisiz, dostlarınıza da xəyanət etdiyinizi düşünmürsüz...***

- Yox, mən heç bir yolumu dəyişməmişəm. Sadəcə, yanıldığımı görmüşəm. Kiməsə çox inanmışam, kiməsə az. Peşmançılıqlarım var bir az. Söhbət Anardan gedirsə, bu günə qədər onu yaxşı, düz tanımamışam.

❑ **Sevinc TELMANQIZI**

# General Çovdarovun əmlak kodu: 32.256.900...

**Bir müddət əvvəl ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrinə Nəzarət Baş İdarəsinin həbsdə olan rəisi Akif Çovdarovun üzərinə həbs qoyulan əmlaklarının siyahısı məlum olub.**

APA-nın məlumatına görə, mülklər belə sıralanır: "Nizami rayonu Naxçıvanski küçəsi 50 ünvanında yerləşən ticarət və xidmət sahəsindən (meyvə-tərəvəz bazarı) ibarət əmlak kompleksinin (dəyəri 8.100.000 manat), "Babək-94" müstəqil kiçik müəssisəsinin Bakı şəhəri Xətai rayonu M.Hadi və İ. Zülfüqarov küçələrinin arasında 2942 a məhəllədə yerləşən binasında 89,8 kvadrat metr ölçüdə 100 nömrəli mənzilin (dəyəri 115.500 manat), Binəqədi rayonu Biləcəri qəsəbəsində İbadət Çovdarovanın adına rəsmiləşmiş 560 kvadrat metr torpaq sahəsinin (dəyəri 95.000 manat), Binəqədi rayonu Biləcəri qəsəbəsində Rövşən Qasımovun adına rəsmiləşmiş 0,06 hektar torpaq sahəsinin (dəyəri 300.000 manat), Yasamal rayonu M. Xiyabani küçəsi 5-də yerləşən "Yeni Yasamal" mənzil-tikinti kooperativinin inşa etdiyi binanın 1-ci mərtəbəsindəki 250 kvadrat metr qeyri-yaşayış sahəsinin (dəyəri 231.500 manat), Xətai rayonu M. Hadi küçəsi 2337-ci məhəllə, "Yüksəliş-C" MTK tərəfindən inşa edilmiş binanın 147,4 kvadrat metr sahəyə malik 179 saylı mənzilinin (dəyəri 125.000 manat), Badamdar qəsəbəsi 1-ci yaşayış massivi 463 ünvanda yerləşən 0,0996 ha torpaq sahəsi və onun üzərindəki 531,60 kvadrat metr fərdi yaşayış evinin (dəyəri 1.655.000 manat), Səbayel rayonu Badamdar qəsəbəsi 1-ci yaşayış massivi 465 ünvanda yerləşən 0,07 ha torpaq sahəsi və onun üzərindəki 275,6 kvadrat metr fərdi yaşayış evinin (dəyəri 1.109.000 manat), Badamdar qəsəbəsi 1-ci yaşayış massivi 465a ünvanda yerləşən 0,0665 hektar torpaq sahəsi və 275,6 kvadrat metr fərdi yaşayış evinin (dəyəri 1.145.000 manat), Nəsimi rayonu Bülbül prospekti ev 65, mənzil 38-in (dəyəri 483.000 manat), Novxanı kəndində yerləşən 0,1073 ha torpaq sahəsinin (dəyəri 86.000 manat), Novxanı kəndində yerləşən 0,0886 ha torpaq sahəsinin (dəyəri 71.000 manat), Novxanı kəndi Novxanı bağlar massivində yerləşən 1276 a nömrəli bağ evindəki 0,18 ha torpaq sahəsi və 222,31 kvadrat metr fərdi yaşayış evinin (dəyəri 808.000 manat), Novxanı kəndindəki 0,11 ha torpaq sahəsi və onun üzərindəki 241,9 kvadrat metr bağ evinin (dəyəri 700.000 manat), Saray kəndində yerləşən 0,15 ha torpaq sahəsinin (dəyəri 60.000 manat), Saray kəndində yerləşən 0,6754 ha torpaq sahəsinin (dəyəri 203.000 manat), Saray kəndində yerləşən 0,17 ha torpaq sahəsinin (dəyəri 59.500 manat), Xızı rayonunun Qızılqazma kəndində yerləşən 2 hektar torpaq sahəsinin (dəyəri 400.000 manat), Qəbələ rayonu Nohurqışlaq kəndində yerləşən 2 ədəd 0,075 hektar torpaq sahələrinin (hər birinin dəyəri 15.000 manat), Şamaxı rayonunun Nağaraxana kəndində yerləşən 0,13739 hektar torpaq sahəsi və onun üzərində yerləşən 250,1 kv.m, 264,6 kv.m, 250,1 kv.m. sahələrində 3 ədəd əsas tikili, 69,4 kv.m, 117,3 kv.m. sahələrində 2 ədəd köməkçi tikilinin (dəyəri 750.000 manat), Masazır kəndində 2,675 ha, 3,0 ha, 0,0275 ha, 0,3238 ha, 0,0828 ha, 3,12 ha, 0,0821 ha torpaq sahələrinin üzərində yerləşən tikililərin (dəyəri 4.310.000 manat), həmin ünvanda 0,2 hektar torpaq sahəsinin üzərində olan tikilinin (dəyəri 2.470.000 manat), Kürdəmir rayonunun Yeni Şıxımlı kəndində yerləşən 2,5 hektar torpaq sahəsinin (dəyəri 1.800 manat), Kürdəmir rayonunun Qurdbayram kəndində yerləşən 100 hektar torpaq sahəsinin (dəyəri 60.000 manat), Kürdəmir rayonunun Mollakənd kəndində yerləşən 69 ha torpaq sahəsində olan göllər, 106 kv.m, 24,8 kv.m, 318,3 kv.m, 28,8 kv.m, 16,7 kv.m, 96 kv.m, 28,8 kv.m. ümumi sahədən ibarət tikililər, 40,5 kv.m. tikintialtı sahəli talvar və 218,6 kv.m. tikintialtı sahəli hovuzun (dəyəri 646.000 manat), Kürdəmir şəhəri "Ərşəli yeri" adlanan ərazidə yerləşən 100 hektar torpaq sahəsinin üzərində yerləşən 93,1 kv.metr tikili, 24.000 nar kolunun (dəyəri 208.600 manat), Nəsimi rayonu Seyidzadə 16 b küçəsi ilə Cavadxan küçəsinin kəsişməsində yerləşən 23 kvadrat metr, 24,6 kvadrat metr, 18,60 kvadrat metr, 13,8 kvadrat metr, 16,0 kvadrat metrdən ibarət qarajların (dəyəri 96.000 manat), Binəqədi rayonu 7-ci mikrorayon, Xarici dairəvi küçəsi 10 saylı yaşayış binasının yanında yerləşən 4941 kvadrat metr sahəyə malik 6 mərtəbəli, zirzəmili və mansardlı binanın (dəyəri 3.178.000 manat), Nəsimi rayonu Cavadxan küçəsi 62 nömrəli binanın yaxınlığında yerləşən zirzəmili, mansardlı 7 mərtəbəli qeyri-yaşayış binasının (dəyəri 4.500.000 manat), Adil Məmmədov küçəsi 143, mənzil 142-nin (dəyəri 145.000 manat), Mir Cəlal küçəsi 143, mənzil 145-in (dəyəri 115.000 manat) üzərinə həbslər qoyulub.



A. Çovdarovun üzərinə həbs qoyulmuş əmlaklarının ümumi dəyəri 32.256.900 manat təşkil edir.

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

**Azərbaycanda müasir texnoloji biliklərdən uzaq xeyli məmur var. İcra hakimiyyətlərində kompüterdən istifadə edə bilməyən, sms yazıb-oxumağı bacarmayan, sosial şəbəkələrin nə olduğunu bilməyən şəxslər yüksək vəzifələr tuturlar. Hətta müasir texnologiyaları mənimsəyə bilməyən icra başçıları da var. Onlar dövlət başçısının siyasi-iqtisadi reformalarına maneçilik törədir və islahatların tempinə uyğunlaşa bilmirlər.**

# Elektron poçtun nə olduğunu bilməyən məmurlar

## Daha çox rayon icra hakimiyyətlərində vəzifə tutan bu şəxslər islahatlar qarşısında əngəllərdən sayılır

Bu problemin ciddi olduğundan danışan **"Yeni Müsavat" qəzetinin baş redaktorunun birinci müavini Azər Ayxan** bildirdi ki, həqiqətən də ölkədə xeyli sayda məmur var ki, müasir texnologiyaları minimum səviyyədə belə, mənimsəyə bilməyiblər. Bu cür məmurlar problem yaradırlar: "Biz ayrı-ayrı qurumlardan, icra hakimiyyətlərindən tənqidi yazılar yazırıq. Mövqelərini yazının içində vermək üçün onlarla əlaqə saxlaya bilmək bir ayrı problemdir. Onlara əlimiz çatmayanda yazının sonunda yazırıq ki, qarşı tərəfin və ya adları çəkilən rəsmilərin mövqeyini dərc etməyə hazırıq. Bundan sonra həmin strukturların rəhbər şəxsləri redaksiya ilə əlaqə saxlayırlar və mövqelərinin dərc olunmasını istəyirlər. Təklif edirik ki, yazılı şəkildə göndərin. Əsl komediya bundan sonra başlayır. "Necə göndərək" - deyə sual verirlər. İzah edirik ki, ya özünüz yazın, ya da bir başqa müvafiq rəsmi şəxsə yazdırın. Bunu deyən kimi həmin məmur tərəfindən növbəti sual gəlir: "Yazdığımızı sizə necə göndərək?" Başa salırıq ki, elektron ünvanımıza göndərin. Deyir ki, o nə olan şeydir. Bəlli olur ki, bu adamların hələ də elektron ünvanın nə olmasından xəbəri yoxdur. Deyirsən ki, indi sizin telefonunuzun mesaj bölümünə öz elektron ünvanımı göndərəcəm. Deyir ki, müəllim, mən o mesajı açıb oxumağı bacarmıram. Təsəvvür edirsinizmi, elə məmurlar var ki, hələ mobil telefonda mesaj açıb oxumağı bilmirlər. Bu cür məmurlar korrupsiya və rüşvət yolu ilə ciddi şəkildə varlanıblar. 20 ildən çoxdur ciblərində bahalı telefonlar gəzdirirlər. Fəqət, telefonda zəng eləmək və zəng qəbul eləməkdən başqa heç bir funksiyanı bilmirlər. Bu cür məmurlar rayonlara rəhbərlik edirlər. Belələrinin dünyada, Azərbaycanda gedən texnoloji inkişafla ayaqlaşa bilməmələri onların fəaliyyətlərində də özünü göstərir. Bunların işi rüşvət almaq, torpaq satmaq, sahibkarlardan xərac toplamaq, iş adamlarının işinə pəl vurmaqdan ibarətdir. Bu qədər zəkası geri, dünyagörüşü inkişafdan qalmış, texnoloji nailiyyətləri minimum səviyyədə bilməyən məmurlar insanlara rəhbərlik edir. Bunlar islahatların qarşısında ciddi əngəllərdəndir. Ölkə prezidenti yeni müasir texnologiyaları mənimsəməyin vacibliyi barədə dəfələrlə çıxışlarında fikirlər bildirib. Amma haqqında söhbət gedən məmurlar necə var elə də qalırlar. Həmin məmurların stolunun üstündəki bahalı kompüterlər görüntü üçündür".



**A.Ayxan vurğuladı ki, müasir texnologiyaları bilməyən məmurlar daha çox rayonlarda, rayon icra hakimiyyətlərində işləyənlərdir:** "Mərkəzi hakimiyyət orqanlarına rəhbərlik edən nazirlərin, komitə rəhbərlərinin əksəriyyəti haqda bunları demək ədalətsizlik olardı. Məsələn, əmək və əhalinin sosial müdafiə naziri Səlim Müslümov, ekologiya naziri Hüseyn Bağırov, daxili işlər naziri Ramil Usubov, DTX rəisi Mədət Quliyev, SOCAR prezidenti Rövnəq Abdullayev, təhsil naziri Mikayıl Cabbarov, Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov müasir texnologiyalardan yüksək səviyyədə istifadə etməyi bacarırlar. Texnoloji nailiyyətlərdən bixəbər olanlar əsasən bir sıra rayon icra hakimiyyətlərindəki yüksək vəzifəli məmurlardır".

**Deputat Zahid Oruc da qeyd olunan neqativ halların mövcud olduğunu bildirdi:** "Bu gün yeni çağırışlar qarşısındayıq. Həqiqətən də müasir kommunikasiya sistemlərini mənimsəmədən gündəlik iş əsnasında tələb olunan məsələləri lazımi səviyyədə yerinə yetirmək çətindir. Diqqət etdikdə görərik ki, icra orqanlarının aparatında müasir kommunikasiyaları bilən şəxslər üstünlük təşkil edirsə həmin strukturda qeyd olunan problemlər yoxdur. Nəzərə almaq lazımdır ki, dövlət başçısı hər zaman söyləyir ki, icra orqanları islahatların önündə getməlidirlər. Bunun üçün də müasir kommunikasiyaları ciddi şəkildə mənimsəmək tələbi qoyulur. Çünki bu olmadan işi keyfiyyətli şəkildə qura bilmək asan deyil. Cənab prezidentin bu tələblərini hər kəs nəzərə almalıdır".

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə bildirdi ki, qaldırılan problem həqiqətən də ciddi problemdir və mütləq həll edilməlidir:** "Bu yaxınlarda Bakı Şəhər İcra Hakimiyyətinin internet səhifəsi ilə bağlı yazmışdım. Dünyanın ən gözəl şəhəri adlandırdıqları Bakının meriyasının internet səhifəsi üz qarasıdır. Həm üz qarası, həm də biabırçılıqdır, ləkədir. Yalnız bu fakta görə bir neçə nəfər vəzifəsindən getməli, mer isə istefaya göndərilməli və haqqında ciddi qanuni istintaq hərəkətləri başlamalıdır. Əksər rayon icra hakimiyyətlərinin də internet səhifələri bərbad gündədir, interaktivlik yoxdur, məlumat bazası yenilənmir, olan məlumatlar da, sadəcə, ət tökür.

Hər bir icra hakimiyyətinin səhifəsində elektron xidmətlər bölümü var, amma əksəriyyəti işləmir. Normal ölkələrdə, normal resurslarda icra başçısından tutmuş xırda məmura qədər hamısının şəkilləri, bioqrafiyası, əlaqə telefonları və elektron əlaqə vasitələri verilir. Bizdə isə cəmi bir e-mail, o da fəaliyyətsiz.

Problem burasındadır ki, çoxları heç bilmir ki, e-mail nədir, Skype, Viber və WhatsApp nədir. Dünya artıq WhatsApp-la xidmət verir. Bizimkilərin isə başı qeyri-qanuni yollarla pul qazanmağa yönəlib. İkincisi, onların elektron vasitələrə allergiyası var, istəmirlər ki, əlçatan olsunlar. Ona görə də istəmirlər ki, adları da səhifədə olsun. Bu gün məmur gizlənir, kölgədə qalır ki, gözə dəymədən büdcə pullarını xımır-xımır yesin. Bu tipli məmurlar iş başından kənarlaşdırılmalıdır. Çünki belələri ilə islahatlar mümkün deyil".

❑ **Etibar SEYİDAĞA**

# Oliqarxların Beynəlxalq Banka borcu silinib - iddia




## Natiq Cəfərli: "Məmur-oliqarxlara, onların yaxınlarına verilən kreditlər bağışlanıb"

**Beynəlxalq Bankın borcları ötürülür. Ekspertlər bunu silinmə kimi dəyərləndirirlər və bunu bankın özəlləşdirilməyə hazırlanması ilə izah edirlər. Səbəblər isə çoxdur. Bankın cari ilin I yarısına aid konsolidasiya edilmiş audit hesabatında bildirilir ki, 2016-cı ildə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin toksik aktivlərinin "Aqrarkredit" QSC-yə ötürülməsinin birinci mərhələsi uğurla başa çatıb. Audit "Deloitte" şirkəti tərəfindən aparılıb. Məlumatda bildirilir ki, birinci mərhələ çərçivəsində bankın balansından çıxarılan problemli aktivlərin həcmi 9 milyard 930 milyon manat həcmindədir. Qeyd edilib ki, I mərhələdə bankın balansından çıxarılan problemli aktivlərin mütləq əksəriyyəti xarici valyutada olanlardır. "Hazırda ikinci mərhələnin aparılması müzakirə olunur. Bu prosesin 2016-cı ilin II yarısı- 2017-ci ilin I yarısında tamamlanması planlaşdırılır" deyə, sənəddə qeyd edilib.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı bildirib ki, hökumət Beynəlxalq Bankı "təmizləyir" ki, sonra sata, özəlləşdirə bilsin: "Bankın geri qayıtmayan problemlı kreditlərini "Aqrokredit" adlı bir quruma ötürür, açıq desək, pulları orada basdırır, kreditləri silir, borcları ləğv edir. "Aqrokredit"ə ötürülən kreditlər batdı, bir daha o pullar dirilməyəcək. Tək bir ildə bankdan 10 milyard kredit silinib, yəni məmur-oliqarxlara, onların yaxınlarına zənglə, tapşırıqla, bəzən "şapka" ilə verilən kreditlər onlara bağışlanıb, pullar yeyilib, üstündən də su içilib. 10 milyard manat beləcə "buxarlanıb"".

**Ekspert Rövşən Ağayevin fikrincə, Beynəlxalq Bankın problemi aktivlərinin maksimum 6 milyard manat olduğu deyilsə də, indi məlumat verilir ki, 2016-cı il ərzində 10 milyard manata yaxın toksik aktiv "Aqrarkredit"ə ötürülüb:** "Bunun da əksəriyyəti xarici valyutada olan aktivlərdir. İl ərzində valyuta bazarını silkələyən, manatı xarici valyutalar qarşısında çökməyə məcbur edən əsas səbəblərdən birini burda axtarmaq lazımdır. Mərkəzi Bankın çap maşını "zəmanətli hökumət borcu" formasında Beynəlxalq Bankda illər ərzində korrupsiyanın əritdiyi vəsaitlərin yerini manatla doldurur, həmin manat isə dollara çevrilib banka dollarla depozit qoyan, borc verən subyektlərə qayıdır. Hələ ən pisi də bununla bitmir: sən demə, 10 milyard manatlıq əməliyyat hələ sağlamlaşdırmanın 1-ci mərhələsiymiş, 2 mərhələ gələn il başlayır. Bu mərhələdə nə qədər problemli aktiv Mərkəzi Bankın çap maşınını hərəkətə gətirəcək, onu dilə gətirmirlər. Bu gedişlə axırda məlum olacaq ki, Beynəlxalq



Natiq Cəfərli

Bankda ən azı 10 milyard dollar "sehrli mədə"nin qurbanı olub". Azərbaycan miqyasda ölkə üçün bu, "əsrin korrupsiyası"dır. Ətrafımızda olan heç bir ölkənin bank sektorunda bu cür genişmiqyaslı korrupsiya cinayəti baş verməyib".

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, "Aqrarkredit"ə ötürülən pullar qayıtmayacaq:** "Deyilənə görə, Beynəlxalq Bank 10 milyard manata yaxın problemli kreditlərini "Aqrarkredit"ə ötürüb ki, sonuncu qaytarsın. Böyük ehtimalla, bu vəsaitlərin əksəriyyəti qayıtmayacaq. Yalnız ona görə yox ki, borclu oliqarxların pulu yoxdur. Həmçinin ona görə ki, "Aqrarkredit" 20-ci əsrin ortalarında ilişib qalmış arxaik bir qurumdur. "Aqrarkredit" özü nədir ki, ölkənin əsas problemlərindən biri olan Beynəlxalq Bankın kreditlərini qaytarsın?"

Onun sözlərinə görə, 2000-ci ildə Nazirlər Kabinetinin sərəncamı ilə Azərbaycan Səhmdar Kommersiya Aqrar-Sənaye, Səhmdar İnvestisiya və Əmanət bankları ləğv edilib. Onların bazasında indiki "Kapital Bank" və bu "Aqrarkredit" yaradılmışdı. Bu zaman "Kapital Bank" ləğv edilən 3 bankın "sağlam aktiv və öhdəliklərinin birləşməsi hesabına", "Aqrarkredit" isə "problemli borclarının və öhdəliklərinin" bazasında yaradılmışdı. "Kapital Bank"a 3 bankın sağlam əmlakı, "Aqrarkredit"ə isə zir-zibil çatmışdı. Bu mənada "Aqrarkredit" zibillikdən yaranmış qurumdur. Nazirlər Kabinetinin sözügedən qərarı çox savadsız tərtib olunmuşdu. Ləğv edilən 3 bankın səhmdarları "Kapital Bank"da və "Aqrarkredit"də öz paylarını tələb edirdilər. Həmin səhmdarlar sırasında hətta SOCAR-ın da qurumu var idi və həmin qurum şikayət edərək Konstitusiya Məhkəməsinədək çatmışdı. Lakin Konstitusiya Məhkəməsi bu hüquqi dərəbəyliyə 14 dekabr 2006-cı il tarixli növbəti qanunsuz qərarı ilə yekun vurmuşdu. Həmin qərarda Beynəlxalq Bankın Hüquq Departamentinin nümayəndəsinin də cəfəng və gülməli, qərara haqq qazandıran reyi var. Düz 10 ildən sonra isə Beynəlxalq Bankın özü də zir-zibilini yaranmasına haqq qazandırdığı "Aqrarkredit"in üzərinə atır. Beynəlxalq Bankın problemli kreditlərindən əlinizi üzün. Azərbaycanda iri kreditlərə görə cəzalandırmırlar".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016



# Sevginin kvadrat metri

Zamin HACI
zaminhaci@gmail.com

**Hökumət deputatxanaya təzə qanun göndərib, istəyirlər internetdə, sosial şəbəkədə yalan, böhtan yazanları cərimə eləsinlər, tutsunlar. Mən açığı, başa düşmədim: ölkəmizdə nəşə qurtarıb ki? Nə ehtiyac var belə qanun dəyişməyə? Hələ su butulkasını heç demirəm, misal üçün, jurnalist Seymur Həzini guya su butulkası ilə bir vələdüznanı döydüyü üçün tutublar. Demək, su butulkası da azalıb.**

Belə getsə hər şey qanuni olacaq. Jurnalistləri yazdığı sözə, müxalifətçiləri də müxalifətçiliyə görə tutacaqlar. Bizə bu lazımdırmı? Məncə, yox. Dövlətçilik nəsə mifik, əfsanəvi, virtual olanda maraqlıdır, möhkəmdir. Yoxsa adamı tut sal türməyə, hamı da bilsin ki, bu facebookda ağzına gələni yazdığı üçün cəzalanıbdır - belə ərazidə qanuna heç kim hörmət eləməz.

Dünən məhkəmə və prokurorluq keçmiş MTN generalı Akif Çovdarovun qamarladığı əmlakın şort-listini (qısa siyahı deməkdir ingiliscə - özümü savadlı göstərirəm) açıqlayıb. Mən ordakı minlərlə hektar torpaq bir yana qalsın, təkcə mənzil sahələrinin kvadratını hesablamaq istədim, kalkulyatorumun təpəsindən tüstü çıxdı. 8 min 700 kvadratmetrdə dayandım, hələ bir neçə çoxqatlı bina da var idi. 27 kvadratmetrlik mənzildə 4 ailə üzvü ilə yaşayan jurnalist üçün 8700 kvadratmetr mənzili təsəvvür eləmək çətindir. Yəqin dəyməsələr Akif müəllim 86,6 min kvadratkilometrin hamısını ələ keçirərdi, bəlkə elə yapistlər bundan qorxub ona "dur" deyiblər, tutub zindana salıblar.

Əslində ilk hal deyil, Fərhad Əliyevi də tutanda istintaq onun evindən Bakıda 60 mənzilin kupçasının çıxdığını açıqlamışdı. Dünyada 1 adama düşən mənzil standartı bütün sanitar-gigiyenik, sağlıq normalarını nəzərə almaqla 18 kvadratmetrdən yuxarıdır. Sivil ölkələrdə isə 30-40 kvadratmetrdir. Ancaq Azərbaycanda yarıtmaz iqtisadiyyat üzündən 18 kvadrata da həsrətik - müstəqil ekspertlərin hesablamalarına görə ölkədə adambaşına 11,5 kvadratmetr, bəzi pessimist rəqəmlərə görə hətta 7 kvadratmetr mənzil düşür. Hakimiyyət özü guya 17 kvadrat düşdüyünü deyir. Bir general isə 10 min kvadratmetrdən çox ələ keçiribmiş...

Yeri gəlmişkən, siyahıda mənim diqqətimi çəkdi ki, Çovdarov Kürdəmirdə də xeyli torpaq və əmlak ələ keçiribmiş. Halbuki orta statistik azərbaycanlılardan soruşsan Kürdəmir ərazisinə lağ edəcəklər, guya oranı çox isti, heç faydası olmayan torpaqlar kimi qələmə verəcəklər. Həmişə yazmışam, demişəm, təkrar edirəm: bu ölkəni, onun torpağını, sərvətlərini sevməyi yapistlərdən öyrənin, ay camaat. Görürsünüz, sizin lağ elədiyiniz yerin altında qızıl yatdığını bunlar gözəl bilirlər. Qəpik-qəpik, qarış-qarış, damla-damla toplayıb, sümürüb, qanını içiblər Azərbaycanın. Biz isə özümüzü guya gözütox, guya təvazökar, guya xırdaçılıq eləməyən kimi göstərib düzdə qalmışıq. Vətənin hər qarışı sevilməlidir - qoy bu da əmlak generalı Çovdarovdan bizlərə bir dərs olsun. Zeytunluq da sevilməlidir, şoranlıq da. Yovşanlıq da əşq doludur, palıd meşələri də. Sadəcə, bu ətri duymaq lazımdır. Hamımız vətəni belə ürək yanğısı, belə acgözlüklə sevsəydik, çovdarovlar onu elə rahatlıqla basmarlaya bilməzdilər. Sevsəydik, əlimizdən belə rahat tutub almazdılar.

Dünən Astara gömrüyündə 4 gömrükçünün də tutulduğunu oxudum. Bu da əsrarın dağılması silsiləsindən bir xəbərdir, məncə, hökumət düz eləmir. Gömrükçünü tutmaq, oturduğun budağa balta çalmağın bir üsuludur. Başa düşürəm, iqtisadi böhran adlı əjdaha ağzını açıb hər gün qurban tələb edir, ancaq ta gömrükdəki uşaqları nöşün incidirsiniz? Bıçaq sümüyə, böhran sərhədə qədər dirənib?

# İşğalçı ölkə danışıqların formal iştirakçısına çevrilir

**Qarabağ münaqişəsi mövzusunda son günlər müzakirə olunan məsələlərdən biri də Rusiya ilə Ermənistan arasında ortaq hərbi qruplaşmanın yaradılması ideyasıdır. Artıq məlumdur ki, Rusiya prezidenti Vladimir Putin belə qruplaşmanın yaradılması yönündə Müdafiə Nazirliyinə Xarici İşlər Nazirliyi ilə birgə işləmək barədə müvafiq göstəriş verib.**



## Ermənistan ordusu rusun nəzarətinə keçir - Kremlin yeni Qarabağ planı

Moskvanın İrəvanla ortaq ordu ideyasının ilginc detalları üzə çıxır; rusiyalı tanınmış analitikə görə, Ermənistanın heç bir söz sahibliyi qalmayacaq, onun iradəsindən heç nə asılı olmayacaq və Bakı Qarabağa görə yalnız Moskva ilə anlaşacaq...

Maraqlıdır ki, işğalçı Ermənistanda bu ideya heç də isti qarşılanmayıb. Xüsusilə də müstəqil ekspert dairələrində "ortaq ordu"dan gözləntilər pozitiv qiymətləndirilmir və bunun daha çox Rusiyaya gərək olduğu vurğulanır. Məsələn, tanınmış erməni siyasi təhlilçilərindən olan İqor Muradyan qeyd etmişdi ki, artıq erməni ordusu dağılır, Ermənistan isə bütünlüklə Rusiyanın tabeçiliyinə keçir. Öz növbəsində rusiyalı təhlilçilər vəziyyətin daha ciddi olduğunu və Kremlin yeni ideya kontekstində Qarabağ məsələsini da göz önünə aldığını bildirirlər.

***

Məsələn, mövzunu şərh edən **rusiyalı tanınmış analitik və tarixçi Oleq Kuznetsov** hesab edir ki, əslində bununla birləşmiş qruplaşmadakı erməni zabitlər sırf əmr yerinə yetirənlər rolunda olacaqlar, bütün qərarları isə rusiyalı hərbçilər qəbul edəcəklər. Bu barədə analitikin rusdilli vesti.az-da dərc olunan müəllif məqaləsində deyilir.

> "Rusiyanın mövqeyi yaxşı məlumdur: konfliktin mərhələli həlli - hətta bu, Ermənistanın dövlət suverenliyinin itirilməsi hesabına olsa belə..."

"Faktiki surətdə söhbət Ermənistan silahlı qüvvələrinin bütün yüksək texnologiyalı hissələrinin Rusiyaya tabe etdirilməsindən gedir. Bu isə Ermənistanın başqa hərbi hissələrinin müstəqil hərəkətlərini iflic edəcək və ya onların istifadəsini 2-ci Dünya müharibəsi dövründəki strategiya və taktika səviyyəsinə endirəcək", - deyə ekspert qeyd edir.

**Rusiyalı analitik daha sonra yazır:** "Bununla əlaqədar Ermənistan üçün hansı nəticələrin ortaya çıxması və Dağlıq Qarabağ konfliktinin nizamlanmasına hansı təsirlərin olmasından dolayı hərbi-siyasi xarakterli sual ortaya çıxır. Sualın iki hissəsini ayrı-ayrılıqda nəzərdən keçirmək istərdim. Şübhəsiz ki, Rusiya və Ermənistanın birləşmiş qruplaşması xarici təcavüz olacağı təqdirdə Ermənistanın müdafiə qabiliyyətini artıracaq *(Təbii ki, Azərbaycan və Türkiyə Ermənistana hücum etməyə hazırlaşmır - S.S.)* Çünki o halda bu ölkənin silahlı qüvvələri Rusiya tərəfinin resurslarına çıxış əldə edəcək. Ancaq bu çıxış təkcə mövcud texniki reqlamentlərlə deyil, həm də qruplaşmanın Rusiya Müdafiə Nazirliyindən olan komandanlığından və ya Kremldən alınan əmr və direktivlərlə şərtlənəcək".

**Ekspert düşünmür ki, bu əmr və direktivlər birtərəfli qaydada Ermənistanın maraqlarını ciddiyə alacaq - əgər həmin maraqlar Rusiyanın, daha doğrusu, onun siyasi rəhbərliyinin maraqları ilə ziddiyyət təşkil edəcəksə:** "Mahiyyət etibarilə Ermənistan silahlı qüvvələrinin bölmələri Rusiya komandanlığına tabe etdiriləcək. Bunun ardınca Ermənistanın müdafiə nazirinin bilavasitə öhdəsində yalnız səhra qoşunları - piyada qüvvələri, tanklar, artilleriya, cəbhə aviasiyası qalacaq. Bundan artıq heç nə.

Özü də bu qruplaşma və hissələrə texniki idarəçilik rusiyalı hərbçilərinin öhdəsinə keçəcək. Başqa sözlə, ən yaxın zamanda Ermənistan ordusu Kremlin istədiyi şəkildə idarə olunacaq və döyüşəcək. Praktikada bu, o deməkdir ki, Serj Sərkisyanın siyasi rejimi özündə hakimiyyət illüziyasını saxlamaq, reallıqda isə öz fiziki mövcudluğu naminə ölkəsini qəti olaraq Rusiyanın satelliti vəziyyətinə keçirir".

**Bütün bunların Dağlıq Qarabağ münaqişəsinin həllinə necə təsir edəcəyinə toxunan Oleq Kuznetsov daha sonra qeyd edir ki, Rusiya ilə Ermənistan arasında birləşmiş ordu birləşməsinin yaradılmasından sonra İrəvan sülh danışıqlarının yalnız nominal və ya formal iştirakçısına çevriləcək və onun iradəsindən heç nə asılı olmayacaq:** "ATƏT-in Minsk Qrupunun beynəlxalq vasitəçiliyi də özünün qeyri-effektliliyi və səylərinin perspektivsizliyi səbəbindən əhəmiyyətini itirəcək. Mahiyyət etibarilə Dağlıq Qarabağ konflikti postsovet məkanının daxili konfliktinə çevriləcək, onun şəriksiz moderatoru qismində isə faktiki, Kreml çıxış edəcək. Dağlıq Qarabağın taleyi də məhz Moskvanın mövqeyindən asılı olacaq, İrəvanın yox. Rusiyanın mövqeyi isə yaxşı məlumdur: konfliktin mərhələli şəkildə həlli - hətta gördüyümüz kimi, bu, Ermənistanın dövlət suverenliyinin itirilməsi hesabına olsa belə".

***

Yada salaq ki, vahid ordu ideyasından öncə Rusiya Ermənistanın hava məkanını da öz nəzarətinə götürüb. İşğalçı ölkənin xarici sərhədləri isə çoxdan rus hərbçiləri tərəfindən qorunur. Getdikcə güclənən tendensiyadan da göründüyü kimi, söhbət əslində Moskvanın yeni Qarabağ planından gedir.

Bu plana əsasən, Dağlıq Qarabağ məsələsində əsas söz sahibi nə Qərb (ABŞ, Fransa) olacaq, nə də getdikcə daha güclü şəkildə Moskvanın asılılığına düşən təcavüzkar Ermənistan. Söz sahibliyi yalnız Kremlə məxsus olacaq. Demək, Bakı doğrudan da öncə Kremllə anlaşmalı olacaq.

❑ Siyasət şöbəsi

# Azərbaycan ordusunun hərbi təlimlər həlledici mərhələdə

**Azərbaycan ordusunun noyabrın 12-də başlayan və 60 minlik canlı qüvvənin, yüzlərlə tank, raket və artilleriya sistemlərinin, onlarla döyüş təyyarəsi və vertolyotların iştirak etdiyi irimiqyaslı təlimlərinin həlledici mərhələsi başlayıb.**

Virtualaz.org xəbər verir ki, Müdafiə Nazirliyi təlimlərin gedişinə dair növbəti qısa videoroliki yayıb. Kadrlardan məlum olur ki, çoxsaylı artilleriya sistemləri və reaktiv yaylım atəşi sistemləri səhra poliqonunda atəş mövqeyinə çıxarılıb və təlim atışları üçün hazır vəziyyətdədir. Habelə tanklar və digər zirehli döyüş texnikası şərti düşmən hədəflərinə hücum üçün son manevrləri edir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Hava Qüvvələrinin irimiqyaslı hərbi təlimlərin keçirildiyi poliqonda yaradılan səyyar komanda məntəqəsində olub.

Hərbi Hava Qüvvələrinin tabeliyində olan birləşmə, hərbi hissə və bölmələrin fasiləsiz və operativ idarə edilməsini təmin etmək üçün komanda məntəqəsinin elementlərinin səhra şəraitində yerləşdirilməsi və onun fəaliyyəti barədə müdafiə nazirinə məruzə olunub.

İdarəetmənin, təminatın, yardımçı qrupların, məntəqələrin işinin, döyüş növbətçiliyinin təşkili və aparılması məqsədilə müasir avtomatlaşdırılmış idarəetmə sistemləri ilə təmin edilən mobil qərargahda fəaliyyətləri izləyən müdafiə naziri müvafiq göstərişlər verib.

Xatırladaq ki, hərbi təlimlərin başladığı gün prezident İlham Əliyev də cəbhə bölgəsində, cənub istiqamətində düşməndən azad edilmiş Lələtəpədə olub. Ali Baş Komandan əsgərlər qarşısında çıxışı zamanı deyib ki, Azərbaycan dövləti orduya "nə qədər lazımsa vəsait" ayırmaqda davam edəcək. İlham Əliyevin sözlərinə görə, aprel döyüşlərindən sonra Azərbaycan bir sıra müasir və hədəfi dəqiq vuran silah sistemləri alıb, həmin silahlar artıq ordunun sərəncamındadır.

Mümkündür ki, təlimlərdə ordunun sərəncamına yeni daxil olan bu silah sistemləri də sınaqdan keçirilir, ancaq Müdafiə Nazirliyi məxfiliyi nəzərə alaraq həmin sistemlərin görüntülərini yaymır.

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016



# Azərbaycan müxalifəti ABŞ-dakı iğtişaşları pisləyir

## Sərdar Cəlaloğlu: "Normal düşüncədə olan adam ABŞ-da baş verən qarşıdurmalara sevinməz"

**ABŞ-da 8 noyabr prezident seçkilərində Donald Trampın qalib gəlməsi etirazlar, iğtişaşlar və ciddi qarşıdurmalarla müşayiət olunur. Trampın prezident seçilməsindən sonra ABŞ-ın böyük şəhərlərində etiraz aksiyaları başlayıb. Ən böyük gərginlik Nyu-York, San-Dieqo, Atlanta, Filadelfiya şəhərlərində olub və hələ qalır.**

Adətən ABŞ başqa ölkələrdə seçkilərdən sonra etirazlara münasibət bildirir, siyasi formada müdaxilə edirdi. İndi onun özündə seçkisonrası etiraz dalğası var. Bir zamanlar Azərbaycanda seçkilərdən sonra keçirilən etiraz aksiyalarının yatırılmasına göz yuman, bəzən hətta şərait yaradan ABŞ-ın indi özü seçkisonrası etiraz aksiyaları ilə üz-üzə qalıb. Azərbaycan müxalifətinin bu vəziyyətə münasibəti, buna sevinib-sevinmədiyi maraq doğurur.

**ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, ABŞ-da iğtişaşlardan, qarışıqlıqdan sevinmək ağılsızlıq olardı və müxalifət düşərgəsi qətiyyən sevinmir:** "Nəzərə almaq lazımdır ki, ABŞ Azərbaycan deyil, heç Fransa da, Almaniya da deyil. ABŞ dünyanın təhlükəsizliyinə bilavasitə zəmanət verən, dünya düzənini müəyyən edən bir dövlətdir. Bu dövlətin özünün düzəninin pozulması dünya düzəninin tamam pozulmasına gətirib çıxarar. Bu baxımdan, normal düşüncədə olan kimsə ABŞ-da qarşıdurmaların baş qaldırmasına, sabitliyin pozulmasına sevinməz. ABŞ-da sabitliyin pozulması bütövlükdə dünyanın məhv olması demək olar".



Sərdar Cəlaloğlu

**ADP sədri qeyd etdi ki, seçkidən sonra müşahidə olunan etiraz aksiyaları ciddi təsirə malik olmadı, vəziyyət getdikcə düzələcək:** "Trampın seçkiqabağı bəzi çıxışları ABŞ-da bəzi qrupların narazılığına səbəb olmuşdu. Seçkidən sonra etiraz edənlər Hillari Klintonun tərəfdarları, demokratlar deyil. Bu gün küçələrə, meydanlara çıxanlar, bu etirazları təşkil eləyənlər əsasən cinsi azlıqlardır. Onların bir sıra tələbləri var. Tramp mühacirlərin ölkədən çıxarılması barədə fikirlər işlətmişdi. İndi etiraz edənlərin bir hissəsi antidemokratik Cənubi Amerika ölkələrindən olan qanunsuz yaşayan miqrantlardır. Əsasən Meksikadan olan həmin qruplar ABŞ-da qanunsuz yaşayırlar, vergi vermirlər, əsasən narkotik daşımaqla məşğuldurlar. Etiraz aksiyalarında bu cür insanlar da aktivlik edirlər. Etirazların arxasında həm də xarici güclər durur. ABŞ-da heç kim, hətta etiraz aksiyaları keçirənlər də seçki saxtakarlığından danışmır, seçkinin saxta olduğunu demir. Sadəcə, seçilmiş bir adamın bəzi məsələlərə münasibətindən narazılıq edirlər. Tramp iki aydan sonra vəzifəsinin icrasına başlayacaq. Gözləmək lazımdır ki, işləsin və atdığı addımlar necə olacaqsa, buna uyğun davranmaq olar. Tramp seçkidən öncə verdiyi vədlərin bir çoxundan indidən imtina edib. Etiraz yarada bilən faktorların çoxu artıq aradan qalxıb. Məncə, Trampın komandası formalaşandan sonra Amerika cəmiyyəti sakitləşəcək".

**VİP sədri Əli Əliyev isə hesab edir ki, demokratik ölkədə dinc etirazların olmasına normal yanaşmaq lazımdır. Demokratiyanın prinsiplərindən biri azlığın hüquqlarının təminatıdır:** "Hərçənd ki, seçici sayına görə xanım Klinton daha çox tərəfdara malikdir. Orası pis olar ki, seçkilərdə məğlub duruma süni salınmış çoxluğu meydanlarda dəyənəkləyə, itlərə yem edələr. ABŞ təcrübəsi ibrətamizdir. Nəzərə almaq lazımdır ki, son prezident seçkilərində hər iki tərəf çox geniş və parlaq kampaniya aparıb, cəmiyyəti silkələyə bilmişdi. Məğlub olmuş insanların etirazı isə təbii reaksiyadır. Həm də qalib Trampın seçkiöncəsi amerikalıların bir qisminin prinsiplərinə zidd olan bəyanatlarını da yada salsaq, məğlubların aşırı fəallığını anlamaq olar. Bizim müxalifətin isə okeanın o tayında baş verənlərə sevinməsi üçün əsas görmürəm. Belə demokratik və qanuni siyasi münasibətlər iqtidarlı-müxalifətli siyasətçilərimizin yalnız həsəd ünvanı ola bilər".

❑ Etibar SEYİDAĞA

# Türkiyə Avropa Birliyi ilə "ipləri" qırır



## AB isə hər nə qədər soyuq münasibətlər olsa da, Ankara ilə əməkdaşlığı davam etdirməkdə maraqlıdır

**Türkiyə gündəminin əsas hadisəsi konstitusiya dəyişikliyi və Avropa Birliyi ilə münasibətlərdir. Ötən gün Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı bəyan edib ki, AKP yeni konstitusiya mətnini müzakirə üçün MHP-yə təqdim edib.**

MHP sədri deyib ki, hazırda partiya rəhbərliyi AKP-nin təklif etdiyi yeni konstitusiya layihəsini müzakirə edir, hər bir maddə incələnir. Onun sözlərinə görə, partiya rəhbərliyi yeni təklif olunan maddələrlə bağlı mövqeyini açıqlayacaq.

Baş nazir Binəli Yıldırım isə deyib ki, hökumət siyasi sistemi deyil, konstitusiyanı dəyişmək istəyir. Bunun üçün də referenduma gediləcək. CHP-ni də konstitusiya müzakirələrinə dəvət edən baş nazir müxalifətin müzakirələrdə iştirak edib narazı olduğu məqamları söyləməsini təklif edib.

Qeyd edək ki. hökumətin hazırladığı yeni konstitusiya Türkiyədə parlament üsul-idarəsindən qismən prezident üsul-idarəsinə keçidi təklif edir. Bir sıra qüvvələr, o cümlədən parlamentdəki müxalif CHP, MHP və HDP buna qarşı olsa da, 15 iyul olaylarından sonra müəyyən qədər hökumətə yanaşması dəyişən MHP hökumətin idarəçilik və qanunvericilik sistemində islahatlarını dəstəkləyib. Ancaq MHP formal olaraq parlamentar sistemi müdafiə edir.

Türkiyədə siyasi vəziyyət ötən gün uzun fasilədən sonra Ankaraya gələn Almaniya XİN rəhbəri Frank-Valter Stenmayerin həmkarı Mövlud Çavuşoğlu ilə danışıqlarında da müzakirə mövzusu olub. Alman nazir mətbuat konfransında deyib ki, həmkarına 15 iyul qiyamından sonra kütləvi həbslər, fikir azadlığına artan məhdudiyyətlərlə bağlı Almaniya hökumətinin narahatlığı çatdırılıb. Eyni zamanda nazir bu narahatlığın "yuxarıdan dərs vermə" olmadığını əlavə edib. Bunun da özəl səbəbi olub.

Qeyd edək ki, son bir ildə Türkiyə və Almaniya arasında münasibətlər pisləşib. Almaniya hökumətinin kürd separatçı siyasətçilərə dəstək verməsi, eyni zamanda "erməni soyqırımı" qanununun parlamentdə qəbul olunması Türkiyəni qəzəbləndirib. Prezident Rəcəb Tayyib Ərdoğan Almaniya hakimiyyətini tənqid edib və onu "Almaniya terrorçular və PKK-çılar üçün təhlükəsiz ölkədir" deməsi iki ölkə arasında ciddi münasibətlərə təsir edib. Almaniya XİN rəhbəri deyib ki, PKK ittihamını qəbul edə bilmərik. Türkiyə XİN rəhbəri isə "erməni soyqırımı" qərarını tənqid edib, eyni zamanda Almaniya-Türkiyə əlaqələrinin tezliklə əvvəlki axarına düşəcəyinə ümid etdiyini deyib.

Qeyd edək ki, ötən gün Avstriya hökumətinin təklifi ilə Avropa Birliyi və Türkiyə arasında üzvlük müraciətinin məhdudlaşdırılması təklifi Avropa Birliyi ölkələri tərəfindən qəbul olunmayıb. Birliyin əsas üzvləri olan Fransa və Almaniya hökumətləri müzakirələrin davam etdirilməsini məsləhətə uyğun biliblər.

Ehtimal olunur ki, Almaniya XİN rəhbərinin Ankaraya səfəri bu məsələ ilə bağlıdır. Məsələ ondadır ki, dekabrın 15-16-da AB liderlərinin sammiti keçiriləcək. Sammitdə əsas müzakirə mövzularından biri də Türkiyə ilə əlaqələr olacaq. Ehtimal ki, Türkiyə ilə Avropa Birliyinə üzvlük müzakirələrinin davamı məsələsi sammitdə də gündəlikdə olacaq. Ankaranın 15 iyul qiyamından sonrakı tutumu, o cümlədən ölüm hökmünün yenidən bərpa olunması kimi təkliflər Avropada narahatlıqla qarşılanır. Bir sıra Avropa ölkələrinin liderləri hesab edirlər ki, edam hökmünün bərpa olunmasının Türkiyənin birliklə münasibətlərinə kölgə salacaq. Ancaq indi də münasibətlər çox soyuqdur və görünən odur ki, Almaniya XİN rəhbərinin Ankaraya səfəri bu mövzuda Ankara ilə uzlaşma müzakirəsinə xidmət edir.

Ancaq məlumdur ki, Türkiyəyə qarşı şərtli təkliflər Ankara tərəfindən sərt təpkiyə səbəb olur. Prezident Ərdoğan AB rəsmilərinin ölüm hökmünün bərpasının müzakirələrə zərər verəcəyi ilə bağlı açıqlamalarına cavab olaraq müzakirələri dayandırmağı təklif etmişdi.

Məsələ ondadır ki, Avropa hələ də qaçqınlar mövzusunda ciddi sıxıntı yaşayır. Bu baxımdan, Türkiyə ilə münasibətlərin pisləşməsi Avropaya qaçqın axınının artmasına gətirə bilər ki, bu da Avropa üçün fəlakətə bərabər olar. Digər tərəfdən, birlik ölkələri Türkiyə ilə bağları qoruyub saxlamaq Avropaya qonşu olan ən böyük ölkələrdən birini itirmək istəmirlər. Bu səbəbdən də hər nə qədər tənqidi yanaşma güclü olsa da, AB hələlik Türkiyəni qoparıb atmağa hazır deyil.

Bu səbəbdən də hazırda Avropanın əsas ölkələri hər nə qədər tənqidi münasibət olsa da, Türkiyəni tamamən "qapı arxasında" qoymaq istəmirlər. Bu, eyni zamanda AB-nin özünün prinsiplərinə, genişlənmə siyasətinə ziddir. Bu vəziyyəti Ankara da bildiyindən indi daha rahatdır və Brüsselə rahat danışa bilir. Ona görə də düşünmək olar ki, qarşıdakı dönəmdə gərgin də olsa müzakirələr, əməkdaşlıq davam edəcək.

❑ Kənan RÖVŞƏNOĞLU

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

**Azərbaycanda bazar deyərkən təkcə elə ticarət mərkəzlərini nəzərə almırlar. Bu başıbəlalı ölkədə indi hara bazar deyil ki? "Cənub mirvarimiz" Lənkəran da bu uzun siyahıda istisna deyil. Şəhər özü, ətrafları nəhəng-nəhayətsiz, ucsuz-bucaqsız bazar sayıla bilər. Şirin sovet dövrünü çıxmaq şərti ilə, Lənkəran elə həmişə "Böyük Bazar" olub.**





# Lənkəran bazarından reportaj - balıq satan nənənin möcüzəsi

## Bazar köhnə görkəmini itirib; satanlar da, alanlar da narazıdır





Bircə şirin sovet zamanları Lənkəran bazarının dəqiq ölçüləri, binası, ərazisi varmış. Qalan dövrlərdə belə olmayıb - bazar həmişə bu şəhəri öz qarşısında diz çökdürməyi bacarıb. Şəhərin quruluşunda, məhəllələrinin adında indi də bunun izlərini tapmaq olar - Lənkəranın yarısı Böyük Bazardı, qardaş, qalanı isə Kiçik Bazar.

İndi bazarın zövqlü binası, habelə tərkibindəki "Çörək evi" kimi tanınan məşhur ünvanlar, digər sovet memarlıq nümunələri bazarın tərkibində itib-batıb. Bazarda quş südünü tapmaq daha inandırıcı görünür indi, nəinki həmin köhnə ticarət tikililərini.

Biz Lənkərana gəlincə, sovet memarlıq məktəbinin nadir incisi sayılan belə binaları çox axtardıq, axtardıq. Axır tapdıq...

Ancaq bazarda deyil, başqa qəliz yerdə aşkarladıq həmin tikililəri. Facebook səhifələrində gedən qızğın müzakirələrin birində istifadəçilərdən biri müasir müstəqillik dövrümüzə ağız büzərək, Lənkəran bazarının sovet dövrünə aid şəklini götürüb öz divarından asıb. Ətrafındakı müzakirə də, vallah, düz deyirəm, dönüb əsl bazara. Kimi bazarın o təmiz dövrünü xatırlayıb indiki halına acıyır, kimi isə əksinə, aşağılayır. Müzakirədən yadımızda qalanları indi siz də eşitsəz pis olmaz: **Rauf Aliyev** - "Əla bazardı. Amma əsil görünüşünü sonralar binaya əlavə edilmiş dükanlar bağlayıb. Mən bazarın xalis şəklini indi görürəm. Halbuki bəlkə 1000 dəfə orda olmuşam ən azı".

**Lila Kazımzade Patlak** - "Heyif o illərdən, indi yaman gündədi. Ayaq atmağa yer yoxdu bazarçıların əlindən".

**Xalid Nəhmədli:** "Qabaq qəşəng imiş. Xarici ölkələrə oxşuyurmuş".



**Şeyma Erdogan Ay:** "O kələğayılı qadın lap nənəmi xatırlatdı mənə. Bazarın damağımda qalan ləzzəti bir qara bamiyəsi, bir də qırmızı xoruz şəkəridi".

**Serraf Musayev:** "Gözəllik+təmizlik. Səmimi fotodu. Gərək yeni şəklini də çəkib müqayisə üçün qoyardız bura. Əcəb inkişaf eləmişik".

***

Sərraf Əliyevin arzularını həyata keçirib, müqayisə üçün bazarın indiki acı halını, cəhənnəm mənzərələrini çəkmək qərarına gəldik. Gəldik bazara. Fotomakinamızı elə təzəcə çantadan çıxarmışdıq ki, gördük qırmızı xoruzlu şəkərin satıcısı, vaxsey, özü biz tərəfə gəlir. Zarafatlaşanda bu oğlanla, gülməkdən öldük az qala - "Bax, bu, məşhur o şəkərli xoruzdu. Təzəsi 30 qəpik, sorulmuşu, ağızdan çıxarılmışı 10 qəpik".

Bəli, Lənkəranın şəhər yumorunu bu məqamda çox bəyəndik. Şəkillərin bu sahədə elə quru adı varmış, həəəə... Əsl gülüş ustaları isə orda deyil, yadda saxlayın, məhz Lənkəran bazarındadır indi. Şəkidə özünüzü yorub daha belələrini axtarmayın.

- Bəxtimiz indi göy əskiyə deyil, bax bu rəngsiz salafanlara bükülür - satıcıların bir başqası, aldığımız feyxoanı torbaya boşaldıb gülür. Əlavə edir:

- "Çileyi" adlanır Lənkəranda bu növ. Tez yetişir, cəmi qırx gün ərzində, vəssalam, göyərib dada düşür. Bu səbəbdən elə "çileyi" adlanır.

Bazarda quş südünəcən var. Amma alan da, satan da narazıdır. Dindirirsən, devalvasiyadan böyük şər qüvvə kimi danışır satıcılar. Deyirlər ki, əvvəlki illərdə olan alver yoxdur. Alıcılar da daha çox mız qoyan olublar sanki. Bir hökumət pensiya verəndə qələbəlik olur bazarda. Cavanların işi yox, gücü yox. Yaşlı valideynləri təqaüdlərini aldı ötürür bunlara, onlar da bazara gəlir. Cibdə pul az, qoca pensiyaçıların tapşırdığı çox. Cavan başına haranın daşını salsın? Bütün qəzəbi də düşür biz satıcıların üstünə. Biz də öz malımızı satmırıq ki? Alıb üstünə 5-10 qəpik qoyub satırıq. Bəs biz necə dolanaq?

Bizimki, odey o boynuyoğunlar kimi büdcə pullarına əlimiz çatmır. Alırıq, satırıq, dolanırıq.

Lənkəran bazarında "hamı dələduzdu" demək insafsızlıq olar. Aralarında halalsüdəmmişlər də az deyil, vallah. Bayaqkı facebook müzakirələrində belələrindən biri görün necə xatırlanır:

**Xalid Emirov:** "Orda bir bibi pendir, qatıq-zad satır. Çox gözəl insandı. Nəsə alanda ondan, bonus olaraq birini əlavə olaraq qoyur zənbilinizə. Ölürəm onunçün. Çox istəyirəm o bibini. Nurani, təmiz, pak sifətiylə bazardakıların hamısından seçilir".

Nənənin dəqiq sifət ölçülərini, cizgilərini beynimizdə canlandırıb, düşürük bazarın canına. Bazar boyu sırayla düzülmüş nənələrin, bibilərin sir-sifətinə ilk imkan tapınca xeyli zillənirik. Axır, sifətimiz gülür. Nənəni balıq satan yerdə aşkarlayıb əvvəlcə səsimizi çıxarmırıq. Balığı alırıq. Gözləyirik nənə zənbilimizə "bonusumuzu" nə vaxt qoyacaq. Siftə, bir səs çıxmır nənədən. Görünür, əli gətirməyib bu gün. Gəliri, qazancı zəifdi deyirik öz-özümüzə.

Bu vaxt, şükür, kimsə qolumdan yapışıb məni arxaya dartır.

- Görürsən, görürsən, Lənkəranın mərifətini? Aldığın balığın üstündə, bir-ikisini müftə qoyurlar.

Əla... İstəyimizə çatmışıq. Sevincdən qanadlanırıq sanki. Bazardakı bir başqa köhnə sovet ünvanına yaxınlaşırıq. 1984-cü ildə Azərbaycanın bütün digər nöqtələrində olduğu kimi, burda da "Çörək evi" binası tikilib, necə deyərlər, zəhmətkeşlərin istifadəsinə verilir. Mərhum qanuni oğru Rövşən Lənkəranskinin atası Rafiq kişi vaxtilə burdan bütün Lənkəranı (!) çörəklə təmin edirmiş, sən demə. Piştaxta arxasındakı satıcı, bizi tanıyıb, mərhumlar barəsində bir xeyli danışır:

- Orucluq vaxtları Rövşənlə iftarımı çox açmışam. Bərəkətli uşaqdı. Kasıbların dayağıydı rəhmətlik. Çoxları indi də gəlib burdan evinə pulsuz çörək aparır.

Deyilənlər anında təsdiqlənir. Görürəm bir kasıb kişi necə utana-utana çörəkxanaya yaxınlaşır. Bircə cəld hərəkətimlə arxamı bu mənzərəyə çevirirəm. İstəmirəm bu cür nisgilli mənzərələrin canlı şahidinə çevrilim.

Lənkəran bazarında şəhərlə bazar arasındakı nisbi bölgü xəttini, görünür, həmişə bax bu cür xeyirxah əməllər, xeyriyyəçilik təşəbbüsləri olub. Yaxşı ki, ənənə bu gün də Lənkəranda davam edir.

❑ **"Yeni Müsavat"ın reportyor qrupu**



# Rusiya Qarabağdaki işğalçı ordunu leqallaşdırır

## Siyasi və hərbi ekspertlər Kremlin işğalçı ölkə ilə daha bir hərbi anlaşmaya qərar verməsinin doğurduğu risklərdən danışdılar

**Rusiya prezidenti Vladimir Putinin Ermənistanla birgə qoşun qruplaşmasının yaradılmasına dair sazişin imzalanmasına icazə verən sənədi təsdiqləməsinə hələlik rəsmi Bakıdan reaksiya yoxdur. Bundan əvvəl Rusiya Gürcüstanın işğal altındakı Abxaziya və Cənubi Osetiya ərazilərindəki separatçılarla hərbi bazalarını birləşdirməklə bağlı saziş imzalamışdı. Növbəti bənzər birləşmənin işğalçı Ermənistanla yaradılması isə Azərbaycanı narahat etməyə bilməz.**

Adətən Azərbaycanın rəsmi qurumları bu kimi hallarda Rusiyanı qıcıqlandırmamaq üçün ikitərəfli razılaşmalara istinad edib məsələni geniş ictimai müzakirələrlə deyil, qapalı danışıqlar müstəvisində müzakirə etməyə üstünlük verirlər. Amma ayrı-ayrı müstəqil ekspertlər məsələnin təhlükəli tərəfləri barədə ictimaiyyəti məlumatlandırırlar. Rusiya prezidentinin imzaladığı sərəncama əsasən, bu məqsədlə yaradılan işçi qrupuna danışıqlar aparmaq və saziş layihəsi üzərində işi tamamlamaq səlahiyyəti verilir. Söhbət Rusiya müdafiə naziri Sergey Şoyqunun bu ilin avqustunda İrəvanda erməni həmkarı ilə imzaladığı sənəddən gedir. O zaman bildirildi ki, tərəflər saziş layihəsinin detallarını məxfi saxlayırlar və vahid qoşun birləşməsinə hansı qoşun növlərinin daxil olacağı məlum deyil. Ancaq məlum olan budur ki, yeni qoşun birləşməsi Ermənistan ərazisində dislokasiya olunacaq və ona Ermənistan Silahlı Qüvvələrinin 4-cü ordu korpusu, həmçinin Rusiyanın Gümrüdəki 102 saylı hərbi bazası daxil ediləcək. Ümumilikdə isə Rusiya və Ermənistan arasında hərbi sahədə 50-dən çox saziş və müqavilə imzalanıb. Onu da qeyd edək ki, hazırda Rusiya Müdafiə Nazirliyinin ali məktəblərində 400-dən çox Ermənistan hərbçisi təhsil alır. Hətta tərəflər bu sayın artırılması barədə müzakirələr aparır.

Birgə qruplaşma isə dinc dövrdə Ermənistan silahlı qüvvələrinin Baş Qərargahına tabe olacaq, hərbi dövrdə isə "vəziyyətdən asılı olaraq" Rusiyanın Cənub Hərbi Dairəsinin komandanlığına tabe olacaq. Putinin sərəncamı Ermənistanla yanaşı, Rusiyanın ekspert dairələrində də geniş şərh olunur.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun regional təhlükəsizlik və Qafqaz problemləri Mərkəzinin əməkdaşı Vadim Muxanov "Svobodnaya pressa"ya şərhində deyir ki, birgə qoşun qruplaşmasının yaradılması regionda vəziyyəti stabilləşdirməyə kömək edəcək və "bəzi qaynar başları ayıldacaq". (virtualaz.org). Ekspertin fikrincə, xüsusən bu addım Dağlıq Qarabağ münaqişəsi regionunda vəziyyətin apreldə olduğu kimi kəskinləşməsinin qarşısını almağa xidmət edəcək.

***

Lakin aprel döyüşləri də göstərdi ki, münaqişənin alovlanmasının qarşısını heç nə ilə almaq mümkün deyil. Onsuz da birinci Qarabağ müharibəsində və ondan sonrakı mərhələdə rus ordusu Ermənistana hərtərəfli dəstək verib. Amma ötən illərdə heç bir təhdid Azərbaycanı torpaqlarından imtinaya sövq edə bilməyib. Azərbaycan prezidentinin ötən həftə işğaldan azad edilmiş Lələtəpə istiqamətindən Ermənistana və havadarlarına xəbərdarlıq etməsi Bakının mövqeyinin dəyişməz olacağını sübut edir. Üstəlik, bu məqamda xəbər yayılıb ki, Azərbaycan İsrailin "Dəmir qübbə" raketdən müdafiə sistemlərini istehlak edən ilk ölkə olacaq. Söhbət bir batareyası 4 kilometrdən 70 kilometrə qədər məsafədən buraxılan reaktiv sursatlardan 150 kvadrat kilometr ərazini müdafiə etmək qabiliyyətində olan silah növündən gedir. Təbii ki, Rusiya-Ermənistan hərbi müttəfiqliyi Azərbaycanı daha ciddi müdafiə tədbirlərinə vadar edir.

**Politoloq Arzu Nağıyev hesab edir ki, Rusiya-Ermənistan hərbi birləşməsinin yaradılmasında əsas məqsədlərdən biri də Dağlıq Qarabağdakı "ordu"nu leqallaşdırmaqdır:** "Bu qərar Azərbaycan üçün birbaşa heç bir təhdid yaratmır, sadəcə olaraq, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasına gətirib çıxara bilər. İndiyə qədər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində Rusiya ilə Ermənistan ərazisində ikitərəfli müqavilə mövcuddur". **Ancaq ekspert dolayısı ilə yaradılan birləşmənin Azərbaycana təhlükəsini də istisna etmir:** "Bu müqavilə çərçivəsində Ermənistanın ərazisinə hər hansı təcavüz olarsa, Rusiya onu qorumalıdır. Çünki KTMT-nin əsas məqsədi bundan ibarətdir".

**A.Nağıyev bildirdi ki, Azərbaycan prezidentinin keçirilən genişmiqyaslı hərbi təlimlərdə iştirakı və verdiyi bəyanat erməni rəhbərliyinə, onun havadarlarına, separatçılara, eyni zamanda münaqişənin həlli ilə birbaşa məşğul olmalı olan beynəlxalq qurumlara, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədrlərinə ciddi bir mesaj oldu:** "Eyni zamanda yəqin ki, sonuncu xəbərdarlıqdır.



**Şahin Cəfərli:** "Bu, həm də Ermənistanın təhlükəsizliyinə əlavə təminatların verilməsi deməkdir"

Məhz bu xəbərdarlığın Lələtəpədən edilməsi də mühüm əhəmiyyət daşıyır. Yəni bir müddət erməni hərbi qurumlarının və ya terror təşkilatlarının işğalında olan, bir həmlə ilə oradan qovulan Lələtəpə bu gün bir qələbə rəmzidir, Azərbaycan bayrağının dalğalandığı məkandır. Bir sıra ermənipərəst qüvvələr Azərbaycan ordusunun öz ərazilərimizdə keçirilən təlimlərə sırf qərəzli münasibət göstərsələr də, bir müddət öncə işğalçıların 45 minlik ordu ilə Ağdam və digər işğal edilən ərazilərdə keçirdikləri təlimlərə susdular. Yəni bunlar münaqişəyə ikili standartdan yanaşma kimi qiymətləndirilməlidir. Ermənilər də, onların havadarları da artıq dərk edirlər ki, Azərbaycan ərazisində ikinci bir erməni dövləti yarana bilməz, status məsələsi də müəyyən mərhələdən sonra danışıqlar mövzusu ola bilər. Məhz buna görə də prezidentin xəbərdarlığı öz ünvanına çatır və artıq işğalçılar, separatçılar və havadarları tərəfindən müxtəlif anti-Azərbaycan reaksiyaları da gəlir".

**Politoloq Şahin Cəfərli isə "Yeni Müsavat"a bildirdi ki, Rusiya-Ermənistan birləşmiş qoşun qruplaşmasının yaradılması hər şeydən əvvəl Moskvanın Qafqazda öz mövqelərini və ümumən öz cənub-qərb sərhədlərini möhkəmləndirmək planlarının tərkib hissəsidir:** "Bilirsiniz ki, Rusiya SSRİ-nin dağılmasından bəri Ermənistanda hərbi baza saxlayır, lakin son illər dəyişən geosiyasi reallıqlar nəticəsində Moskva belə qərara gəldi ki, bu bazanın mövcudluğu təkbaşına yetərli deyil. Yeni situasiyaya uyğunlaşmaq üçün Kremlin siyasi-hərbi müstəvidə ciddi addımlar atdığını müşahidə etməkdəyik. Əvvəla, Ermənistanla hərbi müttəfiqliyin çox möhkəm və dərin müqavilə-hüquq bazası yaradılır, burada məqsəd Ermənistanı daha sıx özünə bağlamaq və bu ölkədə hər hansı siyasi dəyişiklik ehtimalına qarşı sığortalayıcı tədbirlər görməkdir. Yəni tutaq ki, Ermənistanda qəflətən hakimiyyət dəyişikliyinin baş verməsi nəticəsində qərbyönlü qüvvələr iqtidara gələrsə, onların Rusiya ilə müttəfiqliyi pozmaq imkanı olmasın. Sırf hərbi nöqteyi-nəzərdən yanaşdıqda isə biz Rusiya ilə Ermənistan arasında inteqrasiya olunmuş vahid hərbi strukturların yaradılmağa başlandığını görürük. Xatırlayırsınızsa, bundan öncə Rusiya-Ermənistan birləşmiş regional hava hücumundan müdafiə sisteminin yaradılması qərara alınıb".

**Ş.Cəfərli bir məsələyə də diqqət çəkdi:** "Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı müttəfiqləri ilə regional prinsip əsasında - Şərqi Avropa, Mərkəzi Asiya və Qafqaz - birləşmiş HHM sistemləri yaradır və bunlar inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərəcək. Rusiyanın Ermənistana "İsgəndər" operativ-taktiki raket komplekslərı ötürdüyünü də xatırlatmaq yerinə düşər. Əslində Rusiya-Ermənistan birləşmiş qoşun qruplaşması daha əvvəl mövcud idi, indi isə söhbət qruplaşmanın funksionallığının dəyişdirilməsi və sayının artırılmasından gedir. Sülh dövründə qruplaşmanın komandanı erməni generalı olacaq, müharibə dövründə isə Rusiyanın Cənub hərbi dairəsinin komandanı da qruplaşmanın idarə edilməsində iştirak edəcək". Ekspert xatırlatdı ki, tərəflər bu anlaşmanın üçüncü ölkəyə qarşı yönəlmədiyini bildirirlər: "Azərbaycandakı bəzi şərhçilərdən də bənzər fikirlər eşidirik ki, bu məsələ Azərbaycana təhlükə yaratmır. Əlbəttə, Rusiya Ermənistanla birlikdə sabah Azərbaycana və ya hansısa digər ölkəyə hücum etməyəcək, söhbət bundan getmir. Lakin bu anlaşma və ümumiyyətlə, Rusiya-Ermənistan hərbi müttəfiqliyinin dərinləşməsi Azərbaycanın milli təhlükəsizlik maraqları baxımından potensial təhdiddir. Təhlükə və təhdid anlayışlarını təkcə birbaşa silahlı hücum mənasında başa düşmək lazım deyil. Təhlükə odur ki, qarşı tərəf - düşmən və ya rəqib, adı nə olursa olsun - güclənir, regionun böyük dövləti ilə müttəfiqliyini möhkəmləndirir, paritet onun xeyrinə pozulur. Məsələn, Yaponiya niyə öz ərazisində Amerikanın böyük hərbi kontingentini saxlayır? Hansısa dövlət gəlib Yaponiyanı işğal edəcək? Xeyr, hazırkı dövrdə belə bir real təhlükə çox az ehtimal olunur. Yaponiya üçün təhlükə odur ki, o, zəif və köməksiz olarsa, bölgədə Çin, Şimali Koreya, hətta Rusiya kimi dövlətlər onun maraqlarını nəzərə almaz. Bu səbəblə, Yaponiya potensial təhdidləri nəzərə alaraq ABŞ-la sıx müttəfiqlik qurub. Böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq, bütün ciddi dövlətlər potensial, ehtimal olunan təhdidləri nəzərə alaraq hərəkət etməlidir. Bu ilin aprel döyüşləri hərbi tarazlığın Azərbaycanın xeyrinə dəyişdiyini ortaya qoymuşdu, Moskvanın son addımları isə bu tarazlığını bərpasına yönəlməklə birlikdə həm də Ermənistanın təhlükəsizliyinə əlavə təminatların verilməsi deməkdir. Bu, Azərbaycanın manevr imkanlarını daraldır və işğalçı tərəfin özünəinam hissini artırır. Özünü tam güvəndə hiss edən Ermənistanın sülh danışıqlarında ciddi güzəştlərə getməsini gözləməyə dəyməz. Putinin məlum sərəncamının zamanı da diqqətəlayiqdir. Bu hadisə Azərbaycan prezidentinin cəbhə xəttində verdiyi sərt bəyanatlardan dərhal sonraya təsadüf etdi. Təkcə bu faktın özü bizim ciddi nəticələr çıxarmalı olduğumuzu göstərir".

***

**Ermənistan Müdafiə Nazirliyi bildirib ki, birgə qoşun qruplaşması "cənub istiqamətində" yerləşdiriləcək. Söhbət Ermənistanın Türkiyə və Naxçıvanla sərhədindən gedir. Hətta birgə qoşun qruplaşmasına kimin komandanlıq edəcəyi barədə də məlumat sızdırılıb-bu, Ermənistan ordusunun Türkiyə və Naxçıvanla sərhəd istiqamətinə cavabdeh olan 4-cü korpusunun keçmiş komandanı, general-mayor Andranik Markayandır.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

# Təhsil Problemləri İnstitutunun adı dəyişdi



Etibar Əliyev: "İnstituta müstəqillik verilməli və işçilərin əmək haqqı məsələsinə baxılmalıdır"



Firudin Cəlilov: "Bu quruma orta və ali məktəbdə pedaqogikanı yaxşı bilən metodistlər cəlb olunmalıdır"

**Prezident İlham Əliyev Təhsil Problemləri İnstitutunun adının dəyişdirilməsi barədə fərman imzalayıb. Sənədə əsasən Təhsil Problemləri İnstitutu bundan sonra Azərbaycan Respublikasının Təhsil İnstitutu adlanacaq.**

Bəs bu dəyişiklik ölkədə təhsilin səviyyəsinə necə təsir edəcək? Ümumiyyətlə, Təhsil Problemləri İnstitutunun bu sahədəki rolu nə idi?

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan **təhsil üzrə ekspert Etibar Əliyev** bildirib ki, institutun adının dəyişməsi onun daha geniş spektrdə fəaliyyətinə təminat verəcək: "İlk olaraq qeyd edək ki, Azərbaycan Respublikası Bakı şəhəri Xalq Maarif Şöbəsinin 1930-cu il 30 iyun tarixli 30 nömrəli və Xalq Maarifi Komissarlığının 1931-ci il 29 iyun tarixli, 87 nömrəli əmrinə əsasən 1931-ci il iyulun 1-də təhsil sahəsində ilk elmi-tədqiqat institutu - Azərbaycan Elmi-Tədqiqat Pedologiya İnstitutu yaradılıb. Bu institutun adı, onun fəaliyyət istiqamətləri isə bir neçə dəfə dəyişdirilib. Mən bu institutun inkişaf dövrünü 1966-76-cı illərdəki fəaliyyətində görürəm. Bu illərdə institut şagirdlərə elmin əsaslarına dair möhkəm biliklərin verilməsi, politexnik təlimin gücləndirilməsi, gənclərin peşə seçməyə hazırlanması, təhsilin məzmununun elmin, texnikanın və mədəniyyətin inkişafı tələblərinə uyğunlaşdırılması, yüksək keyfiyyətli, stabil dərsliklərin hazırlanması sahəsində elmi axtarışlar gücləndirilib və xeyli səmərəli işlər görülüb".

**Ekspert bildirib ki, 1999-cu ildən etibarən bu institut təhsil sahəsində qəbul olunmuş islahat proqramının icrasında fəal iştirak edib:** "İnstitutun adının dəyişməsi onun daha geniş spektrdə fəaliyyətinə təminat verəcək. Həm də adın dəyişməsinin səbəblərinin bu institutda hökm sürən durğunluqla bağlı olmasını da istisna etmək olmaz.

Təhsil Problemləri İnstitutuna ixtisası uyğun olmayan şəxslərin təyinatı da bu institutun gələcək taleyi haqqında düşünməyə əsas verir. Adın dəyişməsi ilə yanaşı, bu instituta müstəqillik verilməli və işçilərin əmək haqqı məsələsinə baxılmalıdır. Bu təşkilatda əmək haqqı çox aşağı səviyyədədir. Bu isə əmək intizamı və yaradıcılığa mənfi təsir göstərir".

**Sabiq təhsil naziri Firudin Cəlilov da "Yeni Müsavat"a mövzu ilə bağlı fikir bildirib. O söyləyib ki, qurumda daha çox pedaqoqlar, alimlər işləyir:** "Mən işləyən zaman Təhsil Nazirliyinin tabeliyində belə bir qurum var idi. Orada daha çox pedaqoqlar və alimlər işləyirdi. Onlar təhsilin metodist məsləhətlərini hazırlayır, fasiləsiz təhsil modeli üzərində işləyirdilər. Ancaq çox təəssüf ki, onlara rəhbərlik edən adamın savadı yox idi. Şagirdlərin qiymətlərinin aşağı olmasının və digər bu kimi məsələlərin quruma heç bir aidiyyəti yoxdur. Qurum birbaşa olaraq tədrislə məşğul olmur. Sadəcə olaraq, elmi-tədqiqat institutudur və indi də ad dəyişir. Adın dəyişməsi ilə mahiyyət dəyişmir. Əsas məsələ budur ki, bu quruma orta və ali məktəbdə pedaqogikanı yaxşı bilən metodistlər cəlb olunmalıdır. Çünki dərsliklər onların senzurasından keçməlidir. Hazırda senzuradan keçirilmədiyi üçün dərsliklər biabırçı vəziyyətdədir. Kitablara orta məktəbə uyğun olmayan mövzular salınır, bundan əlavə, dil də bərbad haldadır. Bu qurum belə məsələlərlə də məşğul olarsa, nəticə yaxşı olar".

❑ Əli RAİS

**Bugünlərdə Azərbaycan Televiziyasının təmtəraqlı şəkildə 60 illik yubileyi qeyd olundu. Bu illər ərzində mavi ekranların çox sevilən məşhur simaları olub. Onlar arasında diktor, xalq artisti Ofeliya Sənani də var. Öz gözəlliyi, məlahətli səs tempi ilə Ofeliya xanım zamanında böyük bir kütlənin sevimlisinə çevrilmişdi. Onun həm xəbər, həm uşaq verilişləri, həm də ədəbi-bədii verilişlər aparması orta və yaşlı nəslin yaddaşına əbədilik həkk olunub. Xüsusən də onun uşaq verilişləri ilə böyüyən indiki gənclər məşhur diktoru böyük rəğbətlə xatırlayırlar. Bəli, xatırlayırlar, çünki diktor Ofeliya Sənani artıq efirlərdə görünmür, səbəbi isə özünün dediyinə görə, yaşa dolması və xəstəliyi ilə əlaqədardır.**



# "Elə bil ki, məni ölümə aparırlar..."

## Ofeliya Sənani: "Avtobusda da görən insanlar məni qucaqlayıb bağrına basırlar..."

*Onunla telefon əlaqəsi saxlayıb müsahibə almaq istəyimizi bildirəndə də Ofeliya xanım səhhətindən şikayətləndi, danışmağa belə həvəsi və taqəti olmadığını dedi:*

- "İynəni vururlar, dərman geriyə qayıdır. Damar tutqundur, danışıram, tənginəfəs oluram, əsəbiləşirəm. Məni bağışlayın. Sizi başa düşürəm, elə bilməyin ki, mən naz edirəm və yaxud kaprizim var... And içmişəm, daha mən ora getmərəm *(AzTV-ni nəzərdə tutur)*. Axı nə qədər paltar əlimdən düşər yerə, nə qədər çantamda hər şey yaddan çıxar qalar evdə. Bir qaynar qazanla çıxıram evdən, elə bil ki, məni ölümə aparırlar. Deyirlər ki, "balam, bu sənin 48 ildir işlədiyin efirdir, niyə əsəbiləşirsən, bir geyim tapdın getdin də, camaat cins şalvarla çıxır efirə". Amma mən istəyirəm ki, yaxşı olsun. Özümü əsəbiləşdirirəm, sonradan gəlirəm evə. Evdə də tək qalıram, qulluq etməyə adam tapmıram. Bir qadın var, dünən onu gətirmişdim evə. Həftədə bir dəfə gəlir bizə, evi dərindən təmizləmək üçün. Çünki heç gücüm yoxdur. O yazıq arvad da deyir ki, "belə əsəbiləşirsən, taqətdən düşürsən, getmə". AzTV-yə necə getməyim ki, bu mənim doğma yurdumdur.

**- Rəfiqə olduğunuz məşhur diktorlar Şərqiyyə Hüseynova, Tamilla Ələkbərova, Roza Tağıyeva və digər həmkarlarınızla görüşürsüz?**

- Görüşürük. Ayda bir dəfə İçərişəhərə çıxıb görüşürük. İçərişəhər doğma yerdir. Mən orda ailə qurmuşam, Roza xanım da orada ailə qurub, Tamilla orada doğulub, məşhur cazmen Vaqif Mustafazadə də orada dünyaya gəlib. Gedirik onun evinin qabağına, ziyarət edirik, xatirələri yada salırıq, epizodlar danışırıq. Sonra gedirik bir yerdə bir stəkan çay içir, söhbətimizə davam edirik.

**- İdeya və ya tövsiyələrinizi paylaşmaq üçün AzTV-dən dəvətlər gəlirmi?**

- Yox, nə çağırırlar, nə də gedə bilmərəm, buna taqətim, halım yoxdur. Təkcə ora deyil, başqa yerlərə də gedə bilmirəm.

**- İndiki arzularınız nə ilə bağlıdır?**

- Arzum budur ki, bütün ölkədə əmin-amanlıq olsun. Maşallah, hamısından razıyam. Bir ay küçəyə çıxmayanda görürəm ki, şəhər tamam dəyişib, gözəlləşib. Bakımıza kim gəlir, ona heyran olur. Bu məgər pisdir? Sevinmək lazımdır buna, ümumiyyətlə, hər şeyə, gözəlliyə, qonaqların gəlişinə.

**- Küçədə gəzişərkən insanlar sizi tanıyıb yaxınlaşırmı?**

- Bəli. Hətta yaxınlaşıb öpürlər və mən buna imkan verirəm ki, ürəklərini boşaltsınlar. Məni elə qucaqlayırlar ki, deyirlər "biz sizə məftun olmuşuq". Onlar arasında 35-40 yaşlı insanlar da var. Bax, bu nəsil həmişə bizi sevib. Bizim qızları *(rəfiqə olduğu həmkarlarını nəzərdə tutur -X.G.)* da bir yerdə İçərişəhərdə görəndə bütün oradakı insanlar gəlib bizimlə şəkillər çəkdirir, özləri üçün yadigar saxlayırlar. Biz də etiraz etmirik. Onlar bizi sevməsəydi bizə yaxınlaşmazdılar ki. Pis adama arxa çevirib qaçardılar.

Avtobusda da görəndə məni qucaqlayıb bağırlarına basırlar. İctimai nəqliyyatda getməyi sevirəm. Bundan əvvəl maşınım var idi, 5 il sürdüm, sonra satdım. Çünki mən yaşa dolmuş insanam, hərdən başım fırlanır, ümumiyyətlə, mənə maşın sürmək olmaz. İndi ictimai nəqliyyatda gedirəm, insanlarla canlı ünsiyyətdə olmaqdan gözəl şey yoxdur. Bu da bir stimuldur.

**- Övladınız və ya nəvələrinizdən kimsə sizin sənətinizi davam edən varmı?**

- Yox. Mənim 3 nəvəm var. Oğlumun oğlu deyir ki, "mən Hollivudda rejissor olacam", yəni film çəkmək arzusundadır. Çünki onun anasının əmisi Arif Babayev gözəl kinorejissor olub. Arif Babayev əvvəllər bizdə işləyib və gözəl verilişlər hazırlayıb. O, Rafiqlə birgə mənim opera haqqında maarifləndirici gözəl verilişimizi hazırlayıb.

Bir qız nəvəm də çox gözəl rəssamdır. İncəsənət Universitetini bitirib, həm modelyer dizaynerdir, həm də gözəl rəsmləri var. AzTV-də, müxtəlif sərgilərdə gözəl rəsmləri ilə çıxış edib. Aralarında aparıcı olmaq istəyən isə yoxdur. Çünki aparıcılıq çox çətin işdir. Buna görə aparıcılığa meyl göstərmirlər.

**- Səsiniz hələ də öz təravətini itirməyib...**

- Yox, gücü yoxdur axı artıq. Xırıldayır, zarıyıram, güc yoxdur danışmağa... Nə bilim, bəlkə də bir material oxusam yenidən düzələr. Amma qorxuram ki, bunu təmin edə bilməyim.

**- Gənc aparıcılardan kimləri bəyənirsiz?**

- Bütün cavanlarımıza cansağlığı, uğurlar arzulayıram. Gənc həmkarları görüb çox sevinirəm. Onları görəndə mən də gəncləşirəm. Hamısı həmkarlarımızdır. Hər halda, onlar bu sənəti sevib gəlib, sevməyən ora gəlməz ki. Allah hamısına cansağlığı verişin. Fəxri adlar verildi bugünlərdə. İki gün mən gecə-gündüz onu gözlədim ki, bu sərəncam nə zaman çıxacaq. Mən özüm də bundan mənəvi qida aldım ki, maşallah, AzTV-dən çox adam fəxri ada layiq görüldü, şükürlər olsun.

Allah sizlərə də cansağlığı versin. Həmişə işləyin, yorulmayın və yorulmağınızda boynunuza almayın. Bir az gimnastika edin, idmanla məşğul olun. Özünüzə gəlin və yenidən işləyin. Mən həmişə belə etmişəm. Olub ki, xəstəxanada yatmışam və sair, amma heç vaxt ruhdan düşməmişəm. Amma indi... Bu, bir qədər qocalıq, yaşa dolmaqdır, ona görə bir az özümdən narazıyam...

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

# Fermerlərin əsas problemi-korrupsiya...

## Ekspertlər bildirirlər ki, icra strukturlarından tamamilə asılı olmayan, fermerlərə birbaşa çatacaq yardım siyasətinə ehtiyac var

**Dövlət başçısı İlham Əliyev Horadiz şəhərində məcburi köçkünlər üçün salınan yeni qəsəbədə yaradılan şəraitlə tanış olarkən, ona fermerlərin durumunun yaxşılaşması barədə məlumat veriblər. Bildirilib ki, son 13 ildə 2 min nəfərdən çox məcburi köçkün sahibkarlıq subyektinin investisiya layihələrinin maliyyələşdirilməsinə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 40 milyon manat güzəştli kredit verilib. Məcburi köçkünlər arasında yoxsulluq həddi son 13 ildə 75 faizdən 12 faizə düşüb.**

Rayon Ağsaqqallar Şurasının sədri Məcnun Namazəliyev isə Füzulinin inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına minnətdarlığını bildirib. O qeyd edib ki, sahibkarlar üçün, torpaqda işləyən fermerlər üçün gözəl şərait yaradılıb: "Torpaq, toxum, subsidiya, kredit verirsiniz, texnika verirsiniz. Qalır işləmək". O, dövlət başçısının əlavəsindən sonra gübrə və yanacağın verildiyini də bildirib. Maraqlıdır, ölkədə sahibkarlara, fermerlərə nə verilir, hansı güzəştlər edilir? Bu atılan addımlar yetərlidirmi? Ekspertlər musavat.com-a bununla bağlı danışıblar.

**Ekspert Qubad İbadoğlu məsələ ilə bağlı bildirib ki, ölkədə kənd təsərrüfatı üçün müəyyən güzəştlər var və o güzəştlərdən istifadə sahəsində problemlər mövcuddur:** "Əslində dövlət bu güzəştləri edir. Həm vergilər baxımından, həm də subsidiyalaşma, eyni zamanda mineral gübrələrin alınması, sürtkü-yanacaq materiallarının alınması, bu məsələlərdə tətbiq olunan güzəştlərin ünvanlı olmaması, birbaşa, ayrıca olaraq fermerə ünvanlanmaması son nəticədə problem yaradır. Həmin güzəştlərin çatdırılmasında və istifadəsində çətinliklər yaradır. Bu, kifayət qədər müzakirə olunub. Fermerlərə verilən subsidiyaların çatdırılmasında yerli icra hakimiyyəti orqanlarının məsələyə müdaxiləsi, həmin orqanların subsidiyaların bir hissəsini mənimsəməsi ilə bağlı kifayət qədər faktlar var. Nəzərə alsaq ki, Azərbaycan Ümumdünya Ticarət Təşkilatının üzvü deyil, subsidiyanı istədiyi səviyyədə müəyyənləşdirmək imkanına malikdir. Bu subsidiya son nəticədə fermerlərin öz xərclərinin bir hissəsini qarşılamağa imkan verir. Təəssüf ki, həm təsərrüfatların mənimsənilməsi, yerli icra hakimiyyətlərinin manipulyasiyası, son nəticədə dövlət büdcəsindən ayrılan vəsaitlər və yaxud fermerlərə verilən güzəştli kreditlər, subsidiyalar, gübrələr korrupsiyaya məruz qalır. Bunların alınmasında korrupsiya halları müşahidə olunduğundan, nəticədə onun ciddi təsirlərini görə bilmirik".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, əslində kənd təsərrüfatında təşviq proqramlarının fəlsəfəsinin, yanaşmasının dəyişməsi vacibdir:** "Son vaxtlara qədər Azərbaycanda təşviq proqramlarının demək olar ki, hamısı ancaq əkilən ərazinin sahəsinə görə verilirdi. Taxıl, buğda məhsullarında hər hektara görə 80 manat, digərlərində 40 manatlıq təşviq proqramları tətbiq olunurdu.



Bu da kökündən yanlışdır və stimullaşdırıcı bir iş deyil. Kağız üzərində əkin sahələrinin artmasına səbəb olurdu. Çünki yerli icra strukturları və Kənd Təsərrüfatı Nazirliyi fermerlərlə birlikdə kağız üzərində əkin sahələrini artırıb daha çox qazanmağa, bundan yararlanmağa çalışırdılar. İnkişaf etmiş dünyada kənd təsərrüfatı məhsullarında stimullaşdırma proqramları son məhsulun həcminə və keyfiyyətinə görədir. Bu, effekt verir, fermerdə stimul yaradır ki, daha çox və daha keyfiyyətli məhsul istehsal etsinlər. Gübrə və yanacağın verilməsi ilə bağlı da digər ölkələrdə normal və ciddi praktika var. Türkiyədə bu sahə yaxşı təşkil olunub. Azərbaycanda isə pulsuz verilən gübrələrin keyfiyyətində ciddi problem var. Çünki özümüz demək olar ki, gübrə istehsal etmirik. Əsasən İrandan gətirilir və çox aşağı keyfiyyətli bir gübrədir. Əkin sahələrinə ziyan vura biləcək səviyyədədir. Çünki dövlət proqramında pulsuz olduğu üçün kəndlilər, fermerlər onun keyfiyyətinə yox, həcminə fikir verirlər. Pulsuz təqdim olunduğu üçün almağa çalışırlar. Hökuməti də anlayıram ki, Avropadan, Amerikadan və digər inkişaf etmiş ölkələrdən gübrə alınsa, bu, çox baha başa gələcək. Çox böyük vəsait xərclənməli olacaq. Ona görə ən ucuz variant gübrənin İrandan alınmasıdır ki, buna getdilər. Bu isə məhsuldarlığı artırmağa və keyfiyyəti yüksəltməyə kömək etməyəcək. Yanacaqla bağlı isə digər problem birinci qeyd etdiyim kağız üzərindəki əkin sahələrinin artması məsələsinin başqa formada təkrarlanmasıdır. Orada da çox zaman bunu görürük, yanacağın sərfiyyatında ona cavabdeh olan icra qurumları ilə fermerlər arasında müəyyən sövdələşmələr olur. Yanacağın sərfiyyatında artırmalara və mənimsəmələrə yol açan bir sxem qurulur əslində. Buna görə də təbii ki, bu məsələni həll etmək üçün icra strukturlarından tamamilə asılı olmayan, fermerlərə birbaşa çatacaq yardım siyasətinə ehtiyac var. Türkiyədə fermerlərə dövlət hesab açır və onun son məhsulunun keyfiyyətinə, kəmiyyətinə görə həm yanacaq, həm gübrə, həm digər stimullaşdırıcı proqramların həyata keçirilməsi üçün vəsait ayırır. Məsələn, dövlət yanacağı fermerlərə üç dəfəyə yaxın ucuz satır. Bunun da köməyi olur. Azərbaycanda da yanaşma dəyişməsə, stimullaşma proqramlarına yanaşma siyasəti dəyişməsə, büdcədən ayrılan vəsaitin havaya sovrulmasından başqa bir şey deyil. Nə keyfiyyətə, nə kəmiyyətə ciddi təsir olmayacaq, fermerlərin əlindən tuta bilməyəcək".

❑ **RÖYA**

# Hökumətin Afrika ölkəsi ilə riskli əməkdaşlığı-Natiq Əliyev Burkina-Fasoda nə axtarır?




## **Qubad İbadoğlu:** "Bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaratmaq üçün əhəmiyyətli sayılan nəsə görmürəm"

**Qərbi Afrika ölkəsi olan Burkina-Faso ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində ciddi səylər göstərilir. Energetika naziri Natiq Əliyevin bu ölkəyə səfəri və səfərlə bağlı nazirliyin açıqlamaları ciddi müzakirələr doğurub.**

Azərbaycan öz şirkətləri ilə Burkina-Faso şirkətləri arasında əməkdaşlıq əlaqələrinin qurulmasını istəyir.

Energetika Nazirliyindən AzərTAc-a bildirilib ki, bunu Burkina-Fasoda səfərdə olan Azərbaycan nümayəndə heyətinin rəhbəri, energetika naziri Natiq Əliyev bu ölkənin prezidenti Roç Mark Kristian Kabore ilə görüşdə deyib.

"Biz azərbaycanlılar çətin yol keçmişik və bu gün dünya tərəfindən tanınan qənaətbəxş iqtisadi inkişaf səviyyəsinə nail olmuşuq. Çox qısa vaxt ərzində biz ölkəmizdə əhalinin həyat səviyyəsini yaxşılaşdırmış, ölkəmizdə yaşayış səviyyəsini dünya standartları səviyyəsinə yüksəltmişik", - deyə nazir bildirib. Natiq Əliyev həmçinin qeyd edib ki, bütün bunlar yaxşı idarəçilik və əzmkarlıq sayəsində mümkün olub. Xarici investorların ölkəyə cəlb edilməsi və onların yatırdığı kapital milli iqtisadiyyatın müxtəlif sektorlarının inkişaf etdirilməsinə imkan verib.

**Enerji sektorundakı vəziyyətdən danışan nazir deyib:** "Biz hamımız razıyıq ki, elektrik enerjisi inkişafın təməl daşıdır. Bu gün enerjisiz heç bir iqtisadi və sosial inkişaf mümkün deyil. Məhz buna görə də biz öz xidmətlərimizi təklif edirik. Çünki bu sahədə böyük təcrübəmiz var. Biz gələcəkdə Burkina-Faso və Azərbaycan şirkətlərinin investisiyaları sayəsində bu sahədə irəliləyişə nail olacağıq".

N.Əliyev qeyd edib ki, bu əməkdaşlıq əsasən dövlət şirkətlərinə aiddir. O əmindir ki, Burkina-Faso prezidentinə təklif etdiyi çoxsaylı layihələr bu ölkənin müxtəlif regionlarının inkişafına şərait yaradacaq və yeni resursların, xüsusilə neft məhsullarının ölkəyə axınına imkan verəcək.


Qubad İbadoğlu


Natiq Əliyev

Azərbaycanın Qərbi Afrika ölkəsi ilə iqtisadi əlaqələrə bu qədər ciddi önəm verməsi iqtisadçı ekspertlər tərəfindən birmənalı dəyərləndirilmir. Bir qisim qızıl ehtiyatı yüksək olan Burkina-Faso ilə qurulacaq əlaqələrin ölkəmiz adına müsbət töhfələr verəcəyini düşünür. Digər tərəf isə iqtisadiyyatı ürəkaçan olmayan, dünyada adı belə çox tanınmayan bir ölkə ilə Azərbaycanın əlaqələrə bu qədər səy göstərməsini nəticəsiz hesab edir. Azərbaycanın xarici investorların ölkəyə cəlb olunması üçün üzünü Avropadan Afrikaya çevirməsinə də iqtisadçılar müxtəlif rəylər verirlər.

**İqtisadçı ekspert Qubad İbadoğlu bildirdi ki, Burkina-Faso ilə əlaqələrə bu qədər önəm verilməsi məşhur filmlərdəki kimi qızıl axtarılmasına bənzəyir:** "Burkina-Faso Afrikanın qızıl ehtiyatı ilə zəngin olan dördüncü ölkəsidir. Düşünürəm ki, rəsmilər orada qızıl axtarışına çıxan avropalıları xatırladırlar. Əslində Burkina-Faso Afrikada investisiya, biznes mühiti müflis olan ölkələrdən biridir. Harada risk böyükdürsə, orada qazanmaq imkanları daha çoxdur. Adətən dövlətlər belə risklərə getmir. Amma ayrı-ayrı oliqarxlar, investorlar belə ölkələri xoşlayırlar. Çünki belə ölkələrdə həm işçi qüvvəsi ucuzdur, həm də böyük risklərlə daha çox pul qazanmaq imkanları var. Təsəvvür edin ki, Burkina-Faso biznesə başlama indeksində 189 ölkə arasında ümumi reytinqdə 143-cü yerdə olub. Bu ölkə enerji sektorunda işləmək üçün 189 ölkə arasında 182-ci yerdədir. Bu ölkədə mülkiyyətin qeydiyyatı çox mürəkkəbdir. Bununla bağlı reytinqdə də 189 ölkə arasında 149-cu yerdədir. Kontaktların bağlanması da asan deyil. Çünki kontaktların bağlanması, vergilərin ödənilməsi, investorların hüquqlarının qorunması istiqamətində ölkənin mövqeyi pis göstərici sayılır. Burkina-Fasonun ümumdaxili məhsulunun 33%-i kənd təsərrüfatı əsasında formalaşır. Əhalinin 80%-i kənd təsərrüfatında çalışır. Bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaratmaq üçün əhəmiyyətli sayılan nəsə görmürəm. Sadəcə, çirkli pullarını Azərbaycana gətirmək ola bilər. Bu ölkə siyasi baxımdan da ziddiyyətli ölkə sayılır. Bu dövlətdə çoxsaylı hərbi çevrilişlər olub. Uzun müddət dövlət bir hakimiyyətin, bir ailənin nəzarətində olub. Düşünürəm ki, Burkina-Faso ilə qarşılıqlı əməkdaşlıq baxımından Azərbaycanın orada verə biləcəyi heç nə yoxdur. Ola bilər ki, ayrı-ayrı investorlar üçün maraqlı bir ölkə olsun. Burkina-Fasonun sərmayə tələbatı da çoxdur. Açığı, inanmıram ki, bu ölkə Azərbaycanda böyük investisiya layihələrinə başlasın. Ola bilər ki, kənd təsərrüfatı sektorunda hansısa əməkdaşlıqdan söhbət getsin. Konkret məlumat verilmədiyindən hansı sahələrdə əməkdaşlığın olacağı barədə dəqiq fikir söyləmək çətindir. Ən yaxın adamlarıma belə məsləhət görməzdim ki, bu ölkələrə sərmayə yatırsınlar. İstənilən halda bu əməkdaşlığı riskli hesab edirəm. Onların da burada görə biləcəkləri hər hansı bir işi yalnız kənd təsərrüfatı sektoru ətrafında fikirləşmək olar".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

# Yanan maşın bazarında "icarə haqqı yanğını"

## Bazarda bəzi obyektlər boş qalıb; səbəb icarə haqqının 30-40 faiz bahalaşmasıdır

**Xətai rayonundakı "maşın bazarı" kimi tanınan ərazidə baş verən yanğından 4 ay ötür. Bu müddət ərzində yanan obyektlərin tikintisi tam olaraq yekunlaşmadığından sahibkarlar yerləşməyib. Aylardır ki, 40 nəfərə yaxın sahibkar işsiz qalıb. Qeyd edək ki, yanğın zamanı onlarla sahibkara külli miqdarda zərər dəyib və zərərçəkmişlər sığortalanmadığından kompensasiya ala bilməyiblər.**

Musavat.com-un müxbiri son durumla bağlı "maşın bazarı"nda olub və sahibkarların problemlərini dinləyib.

Yanan obyektlərin tikintisi demək olar ki, başa çatıb, lakin bəzi tamamlanma işləri davam edir. Təəccüblü məqam odur ki, artıq istifadəyə verilən obyektlərdə satıcılar gözə dəymir.

**Ətrafdakı satıcıların dediyinə görə, sahibkarların yenidən obyektlərə qayıtmamasının səbəbi icarə haqlarının əvvəlkindən təxminən 40 faiz baha olmasıdır:** "Yanan obyektlərin yerində yenisini tiksələr də, çatışmazlıqlar çoxdur. Məsələn, əvvəl obyektin hündürlüyü çox idi, indi isə hörgü alçaqdan aparıldığından sahibkarlar mallarının yarısını güclə yığa biliblər. Obyektləri alçaq tikiblər ki, xərci çox çıxmasın. Satıcılar mallarını çölə yığmağa çalışırlar, lakin buna icazə verilmir. Bazar rəhbərliyi söz vermişdi ki, yanan obyektlərdə standartlara uyğun şəkildə təmir aparıb, zərərçəkmişlərə qaytaracaq. Ancaq bu gün görürük ki, hamısı yalandır. Obyektlərin içərisinə qara suvaq belə vurmadılar. İcarə haqları isə yenidən bahalaşdı. Satıcılar obyektləri öz vəsaitləri hesabına təmir etdirib, qapı-pəncərə qoyurlar".

Avtomobil ehtiyat hissələri satışı üzrə ən böyük bazar hesab olunan "maşın bazar"ı minlərlə ailənin qazanc yeridir. 90-cı illərdən bəri ən "xodovoy" yer hesab olunsa da, son illər zəifləyib. Bunun bir səbəbi dolların bahalaşması ilə bağlıdırsa, digər səbəb bazardakı obyektlərin icarə haqlarının həddindən artıq baha olmasıdır. Bazarda ən ucuz yer 600 manata, ən bahalı isə 2000-2500 manata icarəyə verilir. Bazardakı satıcılar da bu vəziyyətdən məmnun deyil. Kimin üzünə baxırsan, narazılıq hiss olunur. Onlar bildirirlər ki, icarə haqlarının baha olması onları qiyməti qaldırmağa vadar edir. Bazarın yanan hissəsinin girişindəki 600 manatlıq mağazanı indi 900 manata verirlər. Yanğından əvvəl 480 manatlıq obyektləri isə indi 650-700 manata verirlər. Bir sözlə, bazarın rəhbəri Rasim Salmanov öz bildiyini edir, sahibkarları və satıcıları da cana yığır. Buna baxmayaraq, heç kim səsini çıxarmır, hamı qorxur. Belə olduqda isə müştəri qaçır, alıcılıq azalır".









**Adının çəkilməsini istəməyən sahibkar vəziyyəti belə izah etdi:** "Bazar əvvəlki bazar deyil. Nə düzgün nəzarət var, nə də təhlükəsizlik xidməti... Bir nəfəri yüzlərlə adamın başına qoyublar, o da istədiyi kimi hərəkət edir. Ölkədə bu sahədə ən bahalı icarə haqları bu bazardadır. Xaricdən gətirdiyim ehtiyat hissələri satışı ilə məşğul oluram. Bildiyiniz kimi, dollar bahalaşdığı üçün hər şeyi od qiymətinə alırıq. Bu bir dərd... Bazar rəhbərinin qoyduğu qaydalar da başqa bir dərd... 7-8 kvadratlıq obyekt üçün ayda 1200 manat icarə haqqı ödəyirəm. 150 manat vergi verirəm, 15-20 manat işıq pulu, üstəgəl, aylıq 40 manat mühafizəçi üçün pul ödəyirəm. Ay qardaş, vergini başa düşdük. Bəs mən mühafizəçiyə niyə hər ay pul verməliyəm axı... Bazar müdiri Rasim Salmanov milyonları altına yığıb, biz yazıqlara niyə ödətdirir? Bazarda hamı narazıdır, sadəcə, əlacsız qalmışıq. Qazandığımız pulla bazar müdirini saxlayırıq. Bazarın dövlət nəzarətinə ehtiyacı var. Yoxsa yüzlərlə adam bir gün ayağa qalxacaq..."

**Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




# Qonaqpərvərlik, yoxsa şöhrətpərəstlik?

## Azərbaycanda qonaq qarşılamaq ənənəsi də əndazədən çıxıb

**Qonaqpərvərlik Azərbaycan xalqının kimliyini, səxavətini, yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərən bir adət-ənənədir. Hətta əksər evlərdə "qonaq otağı" da var. Bu otaqlar xüsusi olaraq qonaq üçün nəzərdə tutulub və burada xüsusi səliqə-sahman gözlənilir, bəzədilir. Bir sözlə, qonaqpərvərlik millətimizin baş ucalığı, şöhrət tacıdır.**

Lakin danılmaz faktdır ki, bəzi ailələrdə qonaqpərvərlik öz dərəcəsindən kənara çıxır. Məsələn, məcbur edilir ki, qonaq süfrədə olan bütün təamlardan dadsın, mütləq spirtli içki içsin, "orda oturmasın, burda otursun" və sairə. Təbii ki, bu cür qonaqpərvərlik əksər hallarda qonaq üçün heç də xoşhal olmur, zəhlətökənlik olur desək, yanılmarıq. Bəziləri düşünür ki, evə qonaq gəlirsə, mütləq süfrəsində müxtəlif çeşidli yeməklər, bahalı qab-qacaq olmalıdır, təmtəraqla evini bəzəyir və sairə. Yaxud da belə fikir formalaşır ki, qonaq ancaq yemək üçün gəlir... Səbəb nədir, niyə bəzən qonapərvərliyimiz öz həddini aşır?

Bəzi ekspertlər bildirirlər ki, bunun əsas səbəblərindən biri televiziyalarda gedən qonaqlı proqramlar, müsabiqələrdir. Bir müddət bundan əvvəl yayımlanan qonaqlıq verilişlərində insanlar bir-birilərinin evinə qonaq gedəndə yeməkdən tutmuş hər şeyi müzakirə edirdilər. Məsələn, "kimin süfrəsi gözəl deyil, kim yaxşı yemək təqdim etmir". Bu cür verilişlərdə təkcə yeməklər deyil, evin əşyaları, qab-qacaqlar da müzakirə olunurdu. Təbii ki, bu amili məsələnin bir tərəfi hesab etmək olar. Amma məsələ ondadır ki, qonaqpərvərlik bizlərdə qədimlərdən gələn bir adətdir...

**Tanınmış psixoloq Dəyanət Rzayev isə mövzuya bu cür aydınlıq gətirdi:**

"Qonaqlara məcburən yemək təklif etmək bir ənənəyə çevrilib. Məni şəxsən heç kim çay içməyə və ya yemək yeməyə məcbur edə bilməz. Düşünülməlidir ki, kiminsə şəkəri xəstəliyi, kompleksləri ola bilər və ya utancaqdır. Məcbur etmək doğru deyil. Bu, şöhrətpərəstlikdən irəli gəlir. Bəziləri özünü yaxşı göstərmək, bəzisi isə varını nümayiş etdirmək istəyir. Rayonlarda bəzən belə bir hala rast gəlmək olur, ev sahibi çox kasıbdır və qonaq qarşılamaq imkanı yoxdur. Bu halda o, yaşadığı mühitdə qınaq obyektinə çevrilir. Məsələnin bu tərəfi də var. Amma bəzən də görürsən ki, qonaq gedirsən, ev sahibi yemək yeyir, amma səni dəvət etmir, bunun özü də bir kobudluqdur".

❑ **Xalidə GƏRAY**


DİQQƏT! 2011-ci ildən bütün Beynəlxalq Bal Sərgilərinin qalibi "Darı Tyan Şana" (Qırğızıstan) şirkətinin bal və müalicəvi bal məhsulları Bakıda!

***Atbaşı balı (Ağ bal)***
***Esparset balı (monoflor)***
***İssık kul balı***
***Karkıra balı***
***Uzqen balı***
***Mumiya***
***Oqnyovka pçelinaya***
***Propolis məcunu və s.***

Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır.
Məhsulları bu ünvandan ala bilərsiniz:
Neftçi Qurban küçəsi-119. (Bayıl Doğum evinin yanı)
**Əlaqə telefonu: (012) 49123-82; (051) 922-15-71**

## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 070-888-91-50**

YENİ MÜSAVAT
N 254 (6575) 16 noyabr 2016

# Vanqanın qorxunc proqnozları

## Obama sonuncu prezident olacaq, Avropa boş qitəyə çevriləcək...

**Donald Trampın ABŞ-ın 45-ci prezidenti seçilməsi ilə Vanqanın öncəgörmələri yenidən dünya mediasının gündəmindədir. Belə ki, iddialara görə, o, ABŞ-ın 44-cü prezidentinin son prezident olacağını demişdi. Və məhz buna görə də Vanqa dünya mediasının gündəminə yenidən gəlib.**



Hər kəs "doğrudanmı onun dediyi kimi olacaq" sualını verməkdədir. Trampın qələbəsindən sonra ABŞ-da etiraz aksiyalarının olması bu ehtimalı doğruldurmu?

Məlumat üçün bildirək ki, 1911-ci ildə Bolqarıstanda dünyaya gələn Baba Vanqa 1996-cı ildə vəfat edib. Əsl adı Vangeliya Guşterova olan Vanga 16 yaşında olarkən ildırım çarpması nəticəsində görmə qabiliyyətini itirib. Bundan sonra verdiyi məlumatlar və öncəgörümlərlə əlaqədar dünyada məşhur olub. İkinci Dünya müharibəsində Hitler şəxsən özü onu ziyarət edib. Hətta Sovet KQB-sinin belə ondan bilgilər aldığı iddia edilir.

1952-ci ildə Stalinin öləcəyini xəbər verdikdən sonra həbsə alınır. 6 ay sonra, Stalin öldükdən sonra isə azad edilir. O, Sovetlər Birliyinin çökməsini, hətta Diananın ölümünü belə öncədən görmüşdü.

1950 -ci ildə o, qlobal istiləşməni və 2004 Sunami fəlakətinin olacağını demişdi. "Balkanların Nostradamusu" kimi tanınan Vanqa iqlim dəyişikliyi və onun gətirəcəyi fəlakətlər barədə də xəbər verib. "1950-ci illərin sonunda böyük buz dağları əriyəcək və temperatur qalxacaq". Ona inananlara görə, Vanqanın "böyük dalğa sahillərə düşəcək, insanlar və şəhərlər su altında qalacaq" bildirişi 2004-cü ildəki sunami faciəsini göstərib.

1989-cu ildə 11 sentyabr 2001-ci ildə "uçan quşlar"ın ekiz qüllələrə terror hücumu edəcəyini demişdi. 11 sentyabr hadisələri, Fukuşima nüvə stansiyasında baş verən qəza və İŞİD belə Vanqanın dəhşətli öncəgörümlərində yer alıb.

**"Avropa dağılacaq və boş qitə olacaq" - Breksitimi nəzərdə tuturdu?**

Vanqaya görə, Avropa 2016-cı ilin sonunda dağılacaq. Bu dağılma əhalinin kontinenti sistemli olaraq tərk etməsi ilə başlayacaq və nəticədə "hər hansı formada həyatın olmayacağı qitə" olacaq. İndi dünya mediasında Böyük Britaniyanın Avropa Birliyindən çıxması prosesin başlanğıcıdırmı, sualı dolaşmaqdadır. Vanqaya inananlar tezliklə Avropada müharibə ola biləcəyindən narahatdırlar.

Vanqa 2010-cu ildə "Ərəb baharı" ilə başlanan və "Müsəlmanların avropalılara qarşı kimyəvi silahdan istifadə edəcəyi" Suriyada bitəcək "Böyük Müsəlman müharibəsi"nin olacağını demişdi. "Bu müharibə 2043-cü ildə Romada xəlifəliyin elanı ilə kulminasiya nöqtəsinə çatacaq",- deyə o bildirmişdi.

Dramatik səslənsə də, son hadisələr düşündürücüdür. Belə ki, İŞİD Avropaya yaxın Liviyanın Aralıq dənizi sahilindəki və Qəzzafinin doğulduğu şəhər olan Sirteni tutdu və hazırda şəriət qanunları ilə idarə olunur. İŞİD Suriyada və İraqda da böyük ərazilər işğal edib. Suriyada böyük müsəlman müharibəsinin olacağı da Vanqanın öncəgörümlərindən biri idi.

Vanqa ABŞ-da qaradərili prezidentin seçiləcəyini və 44-cü prezidentin ABŞ-ın axırıncı prezidenti olacağını demişdi. Doğrudanmı belə olacaq? Hər halda, bunu çox yaxın gələcək göstərəcək.

**Vanqanın bundan sonrakı illər üçün öncəgörümləri:**

*- 2018: dünyanın supergücü Çin olacaq;*

*- 2023: Yer kürəsində qeyri-müəyyən dəyişiklik olacaq;*

*- 2026: Avropada əhalinin sayı kəskin dərəcədə azalacaq;*

*- 2028: Yeni bir enerji növü ixtira ediləcək. Aclıq riski azalacaq. İlk dəfə kosmik gəmi ilə insan Veneraya yola düşəcək;*

*- 2033: Qütblərdəki su əridikcə okeanlardakı suyun səviyyəsi artacaq;*

*- 2043: Dünyanın iqtisadi vəziyyəti düzələcək. Müsəlmanlar Avropaya rəhbərlik edəcək;*

*- 2046: xəstə orqanlar yeniləri ilə əvəz ediləcək və bu, ən sadə əməliyyat olacaq;*

*- 2076: kommunist sistemi dünyada yenidən qurulacaq.*

*- 2084: təbiət yenidən canlanacaq;*

*- 2111: insanlar yaşayan robotlar olacaq;*

*- 2170: böyük quraqlıq olacaq;*

*- 2256: kosmik gəmi dünyaya xəstəlik gətirəcək;*

*- 2262: planetlərin təbiəti ardıcıl dəyişməyə başlayacaq. Mars bir ulduzla toqquşmaq təhlükəsi ilə üzləşəcək;*

*- 2288: zaman yolçuluğu başlayacaq, yad planetlilərlə yeni təmaslar olacaq;*

*- 2299: Fransada İslama qarşı üsyan başlayacaq;*

*- 2480: insanın süni yaratdığı iki günəş toqquşacaq. Dünya yenidən qaranlıqda qalacaq;*

*- 3005: Marsda savaş başlayacaq;*

*- 3797:Yer kürəsində bütün canlı həyat məhv olacaq. İnsanlar Günəş sistemində yeni yaşayış yerləri axtarmağa başlayacaqlar.*

❑ **AYBƏNİZ**



# İsmayıllıda bir kəndin torpağın altında qalmaq təhlükəsi yaranıb

**Son bir ayda İsmayıllıya yağıntının normadan artıq düşməsi səbəbindən rayonun Sədiyyan və İstisu kəndlərində torpaq sürüşməsi yenidən aktivləşib. İstisu kənd sakinləri APA-nın yerli bürosuna bildiriblər ki, torpaq sürüşməsi kəndi üç tərəfdən əhatə edən dağ yamacında baş verir. Hazırda sürüşmə ərazisi genişlənərək evlər üçün də təhlükəli vəziyyət yaradıb.**

Sakinlərdən Həmzə Musayev və Ziyad Əzizovun sözlərinə görə, indiyədək bu ərazilərdə torpaq sürüşməsi qeydə alınmayıb. Torpaq sürüşməsinin İstisu kəndinin şimalındakı dağlıq ərazidə aktivləşməsi sakinləri daha çox narahat edir. Hazırda torpaq sürüşməsi davam edir və getdikcə ərazisi genişlənir.

Sakinlərin həyətyanı sahələrində və meyvə bağlarında böyük yarğanlar əmələ gəlib, yeraltı sular üzə çıxıb. Kənddəki evlərin bir çoxunun torpaq altında qalmaq təhlükəsi olduğundan insanlar təşvişə düşüb. Hazırda kəndin 3 tərəfindəki dağ yamacında torpaq sürüşməsi davam edir və torpaq axını tədricən çökək ərazidəki evlərə doğru hərəkət edir.

İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, rayon fövqəladə hallar komissiyasının sədri Rövşən Ağayevin sözlərinə görə, son illər İsmayıllıda torpaq sürüşməsi nəticəsində 29 kənddə 184 ev qəzalı vəziyyətə düşüb. Fövqəladə Hallar Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssislərinin birgə rəyindən sonra həmin evlərdə yaşayanların təhlükəsiz əraziyə köçürülməsi barədə qərar qəbul edilib: "Sürüşmə zonasında yerləşən 184 evdən 81-i tam qəzalı vəziyyətdədir, həmin evlərdən 7-si isə tamamilə dağılıb, 103 evin divarlarında iri çatlar əmələ gəldiyi üçün yaşayış üçün təhlükəlidir".

Rövşən Ağayevin sözlərinə görə, yaşayış üçün yararsız olan bir neçə evin sahibinə kompensasiya ödənilib. Bir ev tikilərək sahibinə verilib və ötən ildən etibarən Fövqəladə Hallar Nazirliyi tərəfindən 6 yeni evin inşasına başlanılıb. Həmin evlərin tikintisi yekunlaşmaq üzrədir. Digər qəzalı evlərin sahibləri üçün yeni mənzillərin tikintisinə qərar verildikdə işlərə başlanılacaq.

# Dünya okeanının səviyyəsi 70 metr qalxacaq?

## **Ekoloq Telman Zeynalov:** "Bu, bir kommersiya oyunudur, insanları nə qədər aldatmaq olar?"

**Antarktida buzlaqlarının əriməsinin dəhşətli nəticələrini əks etdirən videokadr yayılıb. Videoda ABŞ-ın bir çox ştatları, ada dövlətləri, Çin və Banqladeşin bir hissəsinin suyun altında qalacağı bildirilib.**



Planet sakinlərinin həyatı mənfiyə doğru dəyişəcək. Ərimə nəticəsində dünya okeanında suyun səviyyəsi 70 metr qalxacaq. Bu, böyük quru sahələrinin suyun altında qalmasına səbəb olacaq. Bill Nay adlı amerikalı alim buzlaqların tam əriməsi halında planeti gözləyən aqibət barədə fikirlərini açıqlayıb. Alimin sözlərinə görə, qlobal istiləşmə buzlaqların əriməsinə aparır, bu isə bəşəriyyətin taleyini dəyişə bilər. Bu proqnozda yeganə müsbət cəhət birbaşa Şimal qütbündən gəmi yollarının açılmasıdır. Kiçik buz dövrü artıq 15 ildən sonra başlaya bilər. Bu, Günəşin aktivliyinin növbəti dəfə dəyişməsi ilə bağlıdır.

**Maraqlıdır, Amerika alimlərinin dedikləri nə dərəcədə özünü doğrulda bilər? Əgər bu fəlakət baş verərsə, Azərbaycan bundan zərər görə bilərmi? Ekoloq Telman Zeynalov bunun bir oyun olduğunu dedi:** "Amerika keçmiş SSRİ dağılandan sonra dünyanın bütün dövlətlərini özlərinin bazarına çevirmək istəyir. Hər 50 ildən bir iqlim dəyişilir. Gah soyuq, gah da isti olur. Yadınızdadırsa, Amerika 2002-ci ildə Antraktidada buzlaqlar əriyəcək deyirdi. İndi 2016-cı ildir və heç bir ərimə olmayıb. İnsanları nə qədər aldatmaq olar?! Hər dövlət onlara rüsum keçirir. Azərbaycan onlara hər il 15-20 milyon pul ödəyir. Guya qlobal istiləşmə var? Bakının özündən götürək. Oktyabr ayından insanlar paltoya, plaşa keçdi. Bu, qlobal istiləşmədir, buzlaqların əriməsidir?! Bu, yalnızca bir oyundur. Mən bu oyunun həmişə əleyhinə olmuşam, indi də əleyhinəyəm. Onlar öz işsiz olan adamlarını işlə təmin etmək üçün bu yola əl atırlar. Onların hazırladığı videoçarxı hazırlamağa nə var ki. Deyirlər buzlaqlar əriyir, əksinə, hər yer buzlaqlarla örtülür. İndi Mərakeşdə konfrans gedir. Konfransda iştirak edən dövlətlərin əksəriyyəti qlobal istiləşmənin əleyhinə çıxıb. Komissiya sədri deyib ki, bunu Fransada qəbul etmişdik, burada təsdiq edəcəkdik. Ancaq görürük ki, havalar soyuyur. Bu, bir kommersiya oyunudur. Hər bir dövlətin başçısı da kommersantdır. Mənim fikrimcə, buna son qoymaq lazımdır. Qəzet vasitəsilə müraciət edib demək istəyirəm ki, bizim dövlətimizin ora pul keçirməsinə ehtiyac yoxdur. Əgər pulumuz artıqdırsa, versinlər tullantıları lazım olan səviyyədə bir il ərzində məhv etsinlər ki, Azərbaycanda tullantı qalmasın. Tullantıları idarə etmək, təkrar emal etmək lazımdır. Biz kiminsə iqtisadiyyatını bərpa edir, öz iqtisadiyyatımızı isə öldürürük".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 254 (6575) 16 noyabr 2016

# Kartof yeyən kimi sərxoş olur

**ABŞ-ın Ohayo ştatında yaşayan Nik Hes öz qəribə xəstəliyi ilə hər kəsi şoka salıb. Orqanizminin karbohidratı qısa müddətdə alkoqola çevirməsi onu, sadəcə, qonşularının yox, doğmalarının da gözündən salıb. Bu insan kartof yeyən kimi sərxoş olur.**



Nikin dünyada az-az rast gələnən bu xəstəliyindən xəbər tutmaq xeyli vaxt aparıb. Ailəsi içində kartof olan yemək yedikdən sonra Nikin keflləndiyini görəndə, onun gizli-gizli spirtli içki içdiyini, hətta spirtli içki aludəçisi olduğunu düşünməyə başlayıb. Hətta həyat yoldaşı onun başqaları ilə əyləncə məclislərinə getməsindən şübhələnib.

Üzləşdiyi qəribə durumla bağlı bir neçə xəstəxanaya müraciət edən Nikin əsl problemi, sadəcə, həkimləri yox, eşidən-bilən hər kəsi heyrətləndirib. Onun mədəsinin kartofu qısa zamanda spirtli içkiyə çevirdiyi, Nikin bu səbəbdən sərxoş olduğu üzə çıxıb.



# Əri ilə dalaşdı, onu qılıncla zədələdi

**Polis Amerikanın Florida ştatında yaşayan qadını həbs edib. Buna səbəb isə onun əri ilə dalaşdığı zaman ona qılıncla hücum etməsidir. İstintaq müəyyən edib ki, cütlük narkotiklər və ailə problemləri ucbatından dalaşıb. Mübahisə daha sonra əlbəyaxa davaya çevrilib. Bu zaman isə qadın açarla ərinə hücum edib. Kişi isə evdə saxladığı qılıncla ətrafındakı əşyalara ziyan verməyə başlayıb. Kişi sakitləşəndən sonra qılıncı onun həyat yoldaşı götürüb və onunla ərinin qarnına, çiyninə və yançaqlarına zərbə endirib. Zərərçəkmişi xəstəxanaya aparıblar və ona insan sağlamlığına vurduğu ağır ziyana görə iş istəyiblər. Qeyd olunur ki, evdə əşyayi-dəlil olan qılıncla yanaşı, başqa bir qılınc da tapıblar.**

Bu ilin martında isə Yoşkar Olıda yaşayan bir təqaüdçünü də ərinə 82 dəfə samuray qılıncı ilə zərbə endirdiyi üçün həbs etmişdilər.

# Ən asəbi qadınlar bu ölkələrdə yaşayır



**"Nielsen" təşkilatı qeyri-adi araşdırma aparıb. Təşkilat daha çox hansı ölkədə qadınların əsəb və stress keçirdiyini araşdırıb. Məlum olub ki, Hindistanda qadınların düz 87%-i həyatının böyük hissəsini stresslə keçirir. Alimlər bildirir ki, bütün inkişaf etməkdə olan ölkələr kimi, Hindistanda da qadınlar gərgin iş qrafikində işləməklə yanaşı, karyerasının qurulmasında ailə ənənələrinə də əməl etməlidir. Bu, onlarda böyük gərginliyə səbəb olur.**

Tədqiqat zamanı dünyanın 21 ölkəsində 6500 qadının rəyi öyrənilib. Məlum olub ki, ən çox əsəbi qadının olduğu ikinci ölkə Meksika (74%), üçüncüsü isə Rusiyadır (69%).

Sonrakı yerlər belədir:

4. Braziliya (67%)
5. İspaniya (66%)
6. Fransa (65%)
7. CAR (64%) və İtaliya (64%)
8. Nigeriya (58%)
9. Türkiyə (56%)
10. Böyük Britaniya (55%)
11. ABŞ (53%)
12. Yaponiya (52%), Kanada (52%) və Avstraliya (52%)
13. Çin (51%)
14. Almaniya (47%)
15. Tailand (45%) və Cənubi Koreya (45%)
16. Malayziya (44%)
17. İsveç (44%).

Tədqiqat göstərib ki, inkişaf etmiş ölkələrdə qadınlar pulların əsasən yeməyə, təhsilə, paltar və kosmetikaya xərcləyirsə, inkişaf etməkdə olan ölkələrdə onlar müxtəlif səfərlərə, vergilərin ödənməsinə, "arxaya pul atmağa" daha çox vəsait ayırır.



# İti canavarların qəfəsinə saldılar, Çində etiraz dalğası başlandı

**Çinin Deçjou şəhərindəki zooparkda canavarların qaldığı yerdə bir itin yaşadığı da üzə çıxıb. Bu da Çindəki sosial şəbəkənin əsas fenomeninə çevrilib. Canavarlar arasında yaşayan itin videosunu çəkən vətəndaşlar onu yayıblar. Görüntülərdən də görünür ki, it vəhşi canavarların arasında sakit şəkildə, bir küncdə dayanıb. Bu mənzərə isə heyvansevərlərin qəzəbinə səbəb olub. Onlar təklif ediblər ki, iti tezliklə o qəfəsdən çıxarsınlar. Zoopark işçiləri isə izah ediblər ki, bunu etməkdə məqsədləri ziyarətçilərin marağını artırmaqdır. Onlar iddia edirlər ki, canavarlar itə olduqca sakit yanaşırlar və hər hansı travma ehtimalı yoxdur. Amma sosial şəbəkədəki narazılıqdan sonra zoopark rəhbərliyi iti başqa bir qəfəsdə yerləşdirib.**




**QOÇ** - İxtiyarınızda olan bu təqvimdə aktivliyinizi artırmağa ehtiyac var. Sevindirici bir yeniliklə rastlaşma ehtimalınız böyükdyr. Axşamsa yaxın ünvanlara qonaq getmək məsləhətdir.

**BUĞA** - Dünəndən mənfi enerjili Ayın bürcünüzdə qərar tutması ümumi əhvalınızda süstlük yaradacaq. Bu səbəbdən də qeyri-ənənəvi addımlar amaqdan çəkinin. Daha çox gözləmə mövqeyində durun.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvimin ümumi görüntüsü daha çox gərginliyə yaxındır. Odur ki, əsəblərinizi cilovlamağa ehtiyac duyulur. Nahardan sonra isə qazanmaq ehtimalınız var.

**XƏRÇƏNG** - Ulduzlar göstərir ki, uğurlu və maraqlı bir gün yaşayacaqsınız. Sürprizlər də öz yerində. Göy qübbəsi saat 17-dən sonra təmiz havada gəzinməyi, qonaq getməyi məsləhət görür.

**ŞİR** - Səhər saatları müəyyən qədər gərginliklə başlasa da, bu heç də qazanacağınız uğurlara sipər çəkməyəcək. Odur ki, narahat olmayın və bəxtinizə inanın. Gecəni mütləq öz evinizdə keçirin.

**QIZ** - Bəri başdan əmin olun ki, gün ərzində heç bir qanqaraçılığı və ya uğursuzluqla rastlaşmayacaqsınız. Əksinə, ətrafınızda olanların əksəriyyəti sizə xoş ovqat bəxş edəcək.

**TƏRƏZİ** - Ağlabatmayan, riskli işlərdən uzaq olmaqla qarşıya qoyduğunuz planların əksəriyyətini reallaşdıra bilərsiniz. Saat 13-16 arası perspektivli təkliflər, təzə xəbərlər mümkündür.

**ƏQRƏB** - Böyük bir layihəni həyata keçirmək fikrindəsiniz. Amma nədən və necə başlamağı bilmirsiniz. Tərəddüd etməyin. Çünki indi "hakim bürc" sizsiniz və risk sizi müvəffəqiyyətə qovuşduracaq.

**OXATAN** - Bürcünüzdəki planetar mənzərə bütün gedişatlarda xeyrinizi tənzimləyəcək. Xüsusilə saat 12-dən başlayaraq sizin uğurlu məqamlarınız başlayacaq. Bütün vacib planlarınızı həyata keçirməyə çalışın.

**OĞLAQ** - Təxminən saat 15-ə qədər ümumi ovqatınız aşağı səviyyədə olacaq. Həmin ərəfədə neytral və təmkinli olun. Sonrakı müddətdə isə bir neçə sürprizlə rastlaşacaqsınız.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu təqvimdə səhhətinizlə bağlı problemlər, həmkarlarınızla mübahisələr, həmçinin iştahasızlıq daxili sabitliyinizi poza bilər. Buna baxmayaraq, tədbirli olun.

**BALIQLAR** - Ailə-sevgi münasibətlərində, eləcə də fəaliyyət zəminində bəzi qalmaqallar gözlənilir. Özünüzü ələ alın. Tələsik qərar çıxarmayın. Lazım gəlsə, təcrübəli adamlarla məsləhətləşin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Uşaqlara bu cümlələri demək.... olmaz!



**Uşaqlarına tez-tez öyüd-nəsihət edən valideynlər bir çox hallarda ciddi, strateji səhvlərə yol verirlər. Belə ki, ata-ananın dedikləri bəzi sözlər uşaqların psixologiyasına zərbə vurur, onlarda travma yaradır. Amerikalı alimlər bu cümlələri belə sıralayıblar: 1. "Məni utandırma" 2. "Mən sənin yaşında olanda..." 3. "Başqalarının uşaqlarına bax..." 4. "Yeməyini yeməsən, böyüyə bilməzsən" 5. "Sən də anan-atan kimisən" 6. "Səndən bir söz belə eşitmək istəmirəm" 7. "Bunu etsən səni sevərəm".**

Alimlər hesab edir ki, bu cümlələrin hər biri hansısa formada uşaqlarda kompleks yaradır və onların şəxsiyyət kimi formalaşmasına manеə olur.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750